QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim
üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 229 (5949) **11 dekabr** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Azərbaycan-İordaniya münasibətlərində yeni mərhələ başlayır

*İlham Əliyev: "Beynəlxalq təşkilatlarda bir-birimizi çox vacib məsələlərlə bağlı dəstəkləyirik"*

Səh 2



3

Əli Əhmədov: "Azərbaycan ən uğurlu ölkə adını hələ uzun illər qoruyacaq"



3

Yeni Azərbaycan Partiyası Milli Məclisə keçiriləcək növbədənkənar seçkilərdə iştirakı ilə bağlı qərar qəbul edib

4

Azərbaycanda mövcud seçki sistemi və radikal müxalifətin əsassız iddiaları



# Azərbaycan-İordaniya münasibətlərində yeni mərhələ başlayır

*İlham Əliyev: "Beynəlxalq təşkilatlarda bir-birimizi çox vacib məsələlərlə bağlı dəstəkləyirik"*

***Dünən Azərbaycan Respublikasına rəsmi səfərə gələn İordaniya Haşimilər Krallığının Kralı II Abdullah ibn Al Hüseynin rəsmi qarşılanma mərasimi olub. AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda Kral II Abdullahın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.***



Azərbaycan Prezidenti İlham Əliyev İordaniya Kralı II Abdullahı qarşılayıb. Fəxri qarovul dəstəsinin rəisi İordaniya Kralına raport verib. İordaniya Kralı Azərbaycan əsgərlərini salamlayıb. Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İordaniya Haşimilər Krallığının Kralı Əlahəzrət II Abdullah ibn Al Hüseyn ilə təkbətək görüşü olub. Ali qonağı salamlayan Prezident İlham Əliyev bildirib ki, biz beynəlxalq arenada səylərimizi əlaqələndirməyə çox şadıq. Beynəlxalq təşkilatlarda bir-birimizi çox vacib məsələlərlə bağlı dəstəkləyirik:

-Əlahəzrət, əziz qardaşım, Azərbaycana xoş gəlmisiniz. Mənim dəvətimi qəbul edib





bizə səfər etdiyiniz üçün Sizə təşəkkür edirəm. Bu səfər ikitərəfli gündəliyimizdəki vacib məsələlərlə bağlı bir daha müzakirələr aparmaq üçün çox yaxşı imkandır. Bu yaxınlarda biz Soçidə görüşdük və bizim söhbət etmək imkanımız oldu. Mən bir daha Sizi ölkəmizə səfərə dəvət etdim. Şadam ki, çox məşğul olmağınıza baxmayaraq, qısa müddət ərzində bizi ziyarət etdiniz. Azərbaycanda Sizi qəbul etmək həqiqətən böyük şərəfdir. Siz burada bizim əziz qonağımızsınız. Əminəm ki, bu səfər ərzində biz qardaşlıq münasibətlərimizin daha da inkişafına birgə töhfə verəcəyik. Bu münasibətlər müxtəlif sahələri əhatə edir. Biz beynəlxalq arenada səylərimizi əlaqələndirməyə çox şadıq. Beynəlxalq təşkilatlarda bir-birimizi çox vacib məsələlərlə bağlı dəstəkləyirik.



Siyasi təmaslar əladır. Mən iqtisadi göstəricilərə baxdım. Düşünürəm ki, biz daha gərgin çalışmalıyıq. Əlbəttə ki, biz bunu edəcəyik və bu gün bu məsələ ilə bağlı geniş müzakirə aparacağıq. Şadam ki, bu il İordaniyadan Azərbaycana gələn turistlərin sayında artım olub. Artım 20 faizdən çoxdur. Hesab edirəm ki, biz insanların bir-birilərini daha tez-tez ziyarət etmələri üçün birbaşa hava əlaqəsinin yaradılması imkanını da müzakirə edə bilərik. Bir daha xoş gəlmisiniz və Sizə Bakıda xoş vaxt keçirməyi arzu edirəm.

İordaniya Kralı II Abdullah:

-Mənim əziz qardaşım, çox sağ olun. Dediyiniz kimi, Sizi bu yaxınlarda Soçidə görmək xoş idi. Son iki onillikdə mənim buraya səfərimlə bağlı çoxlu gözəl xatirələrim olub. Mən əziz dostumla burada olmaqdan şadam. Bilirəm ki, beynəlxalq arenada Siz çox vacib rol oynayırsınız. Xüsusilə də bu yaxınlarda keçirilmiş Qoşulmama Hərəkatının Zirvə Görüşü ilə bağlı təbriklərimi Sizə çatdırıram.

Dediyiniz kimi, əziz qardaşım, bizim siyasi, kəşfiyyat, hərbi sahələrdə əlaqələrimiz güclüdür. İqtisadiyyat sahəsini inkişaf etdirə bilərik. Əminəm ki, bu gün müvafiq görüşlərimiz olacaq. Lakin buraya gəlmək istədim ki, Sizə regionda və dünyada oynadığınız roluna görə təşəkkürümü bildirim. İnanıram ki, İnşallah, regionumuzda olan çağırışların öhdəsindən gəlmək üçün daha çox məsələlərlə bağlı müzakirələr apara bilərik. Mən Sizin liderliyinizə, ölkəmizə münasibətdə xeyirxahlığınıza və dəstəyinizə hər zaman arxalanıram. Bu xoş dostluğa görə Sizə təşəkkür edirəm.

Təkbətək görüş başa çatandan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İordaniya Haşimilər Krallığının Kralı Əlahəzrət II Abdullah ibn Al Hüseyn ilə işçi nahar edib.

## Əli Əhmədov: "Azərbaycan ən uğurlu ölkə adını hələ uzun illər qoruyacaq"



"Dekabr ayının 12-si ümummilli lider Heydər Əliyevin anım günüdür. Bu dahi insanın əbədiyyətə qovuşmasından keçən 16 il ərzində insanlar heç zaman onun yoxluğunu hiss etməyiblər. Özü bir neçə dəfə qeyd etmişdi ki, nə qədər Azərbaycan varsa, o da olacaq. Keçən 16 il bu sözlərin böyük həqiqət olduğunu sübuta yetirdi. Başqa bir reallıq, bəlkə də həqiqət ondan ibarətdir ki, Heydər Əliyevin anım gününün qeyd edilməsi Azərbaycanda insanları birləşdirmək gücünə malik olan dövlətçilik ənənəsinə çevrilib. Onun həm doğum, həm də anım gününün insanlar tərəfindən böyük hörmət və ehtiramla qeyd edilməsi, əslində Heydər Əliyevin Azərbaycan dövləti və xalqı qarşısında misilsiz xidmətlərinə verilən yüksək qiymətin ifadəsidir." Bu fikirləri Baş nazirin müavini, YAP-ın Sədr müavini-İcra katibi Əli Əhmədov öz şəxsi facebook səhifəsində yayımladığı "Heydər Əliyev - xalqın ehtiram ünvanı" sərlövhəli məqaləsində bildirib.

Əli Əhmədov qeyd edib ki, Heydər Əliyevin Azərbaycana rəhbərlik illəri ölkəmizin taleyinin və gələcəyinin təyin olunmasında həmişə həlledici rol oynayıb. Sovetlər dönəmində Onun Azərbaycana rəhbərlik etdiyi dövr tariximizə əzəmətli sıçrayış və yeniləşmə illəri kimi daxil olub. Məhz Onun müdrikliyi, qətiyyəti, təşkilatçılığı sayəsində iqtisadi böhran şəraitində olan respublika ən qısa vaxtda sürətli sosial-iqtisadi yüksəliş mərhələsinə daxil ola bildi. Azərbaycan cəmi bir neçə il ərzində ən geridə qalan respublikadan ən qabaqcıl respublikaya çevrildi, sənayesi inkişaf etdirildi, güclü aqrar-sənaye kompleksi formalaşdı. Azərbaycanın iqtisadi inkişafı xalqın özünəinamını artırdı, milli özünüdərk hissi gücləndi, mənəvi tərəqqi sürətləndi. Elmin, mədəniyyətin, təhsilin inkişafında böyük nailiyyətlər əldə edildi. Bakının milli siması formalaşdırıldı, bütün sahələrdə, o cümlədən idarəçilikdə, mədəniyyətdə milli kadrlar yetişdirildi, milli ruhun yüksəlişi təmin edildi. Bu, əslində Azərbaycanın intibah dövrü idi və o zaman yaradılan bünövrə ölkənin gələcək taleyində müstəsna rol oynadı.

"Heydər Əliyevin misilsiz tarixi missiyası ölkəmizin müstəqilliyinə qovuşduqdan sonrakı dövrdə özünü daha qabarıq şəkildə biruzə verib. Azərbaycan xalqı əvəzsiz xidmətlərinə görə Ümummilli lideri xilaskar adlandırmışdır və hesab edirəm ki, bu, tamamilə məntiqli və ədalətlidir. Heç şübhəsiz, Azərbaycanın 1991-ci ildə qazandığı müstəqilliyin qorunub saxlanması, onun əbədi və dönməz xarakter alması müstəsna olaraq Heydər Əliyevin xidməti sayılmalıdır və sayılır. 1993-cü ildə Onun qayıdışı sayəsində Azərbaycan parçalanmaqdan, xaos və anarxiyadan, iqtisadi böhrandan və sair bəlalardan xilas oldu. Ölkədə sabitlik və əminamanlıq təmin edildi, islahatlar həyata keçirildi, iqtisadi tənəzzül cilovlandı.

Azərbaycanın iqtisadi çiçəklənməsinə və təhlükəsizliyinə təminat verən böyük neft sazişləri imzalandı, iqtisadi, sosial və siyasi islahatlar strategiyası hazırlanaraq ardıcıl surətdə həyata keçirilməyə başlandı. Yeni, müstəqil Azərbaycan dövləti quruldu, dövlətçiliyin ideologiyası və təməl prinsipləri yaradıldı."-deyə, Əli Əhmədov vurğulayıb.

Baş nazirin müavini Əli Əhmədov daha sonra qeyd edib: "Bu gün istər ölkə daxilində, istər ölkədən kənarda hamı Heydər Əliyevi müstəqil Azərbaycan dövlətinin memarı sayır. Qeyd olunmalı əsas məqam isə odur ki, Heydər Əliyev siyasəti onun dünyasını dəyişməsindən sonra da ölkənin inkişafının, müasirləşməsinin və yeniləşməsinin əsasını təşkil edir. 2003-cü ildən bu günə qədər Azərbaycanın Prezident İlham Əliyevin rəhbərliyi altında möhtəşəm inkişafında bu siyasət həlledici rol oynayıb və oynamaqdadır. Məhz bu siyasətin uğurla və yaradıcılıqla həyata keçirilməsi sayəsində Azərbaycanın iqtisadiyyatı son 15 ildə 3,6 dəfə artıb, yoxsulluq 49 faizdən 5 faizə enib, insanların rifahı əhəmiyyətli dərəcədə yüksəlib, ölkənin hərbi qüdrəti müqayisəedilməz dərəcədə güclənib. Azərbaycanın müasirləşməsi, yeniləşməsi baş verib, şəhər və kəndlərin siması kökündən dəyişib. Bu gün Azərbaycan dünyanın ən uğurlu gənc dövləti kimi qəbul olunur, onun parlaq gələcəyinə hamı inanır. Ölkəmizin beynəlxalq nüfuzunun artması, mövqeyinin güclənməsi, bir çox beynəlxalq reytinqlərdə ən mötəbər yerlərdə qərar tutması insanların qürur mənbəyinə çevrilib.

Azərbaycan inkişaf edir, yenilənir, müasirləşir. Son vaxtlar uğurla həyata keçirilən islahatlar ölkəni inkişafın keyfiyyətcə yeni mərhələsinə aparır. Qarşıda böyük hədəflər dayanır. Azərbaycan Heydər Əliyevin qoyduğu yolla gedərək ən uğurlu ölkə adını hələ uzun illər qoruyacaq. Vaxtilə Heydər Əliyev deyirdi: "Azərbaycan dünyaya günəş kimi doğacaq". Əslində bu artıq bir həqiqətdir. Ona görə də ölkədə uşaqdan böyüyə qədər hamı o dahi insanı unutmur, onun xatirəsini həmişə əziz tutur."

## Yeni Azərbaycan Partiyası Milli Məclisə keçiriləcək növbədənkənar seçkilərdə iştirakı ilə bağlı qərar qəbul edib




Yeni Azərbaycan Partiyasının İdarə Heyəti Azərbaycan Respublikasının Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərdə partiyanın iştirakı ilə bağlı qərar qəbul edib.

AZƏRTAC xəbər verir ki, YAP İdarə Heyətinin iclasında ölkəmizdə bütün sahələr üzrə yüksək inkişafın əldə olunduğu, əhalinin rifah halının daha da yüksəldiyi, regionların simasının əhəmiyyətli dərəcədə dəyişdiyi və bu dəyişikliklərin hər bir vətəndaşın həyatına müsbət təsir göstərdiyi diqqətə çatdırılıb. Qeyd olunub ki, bu gün Azərbaycanda geniş və çoxşaxəli islahatlar proqramı Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyev tərəfindən çox böyük uğurla həyata keçirilir. Bu siyasət xalqın mütləq əksəriyyəti tərəfindən birmənalı şəkildə müdafiə olunur. Bu baxımdan, 2020-ci il fevralın 9-da Azərbaycan Respublikasının Milli Məclisinə keçiriləcək seçkilər Yeni Azərbaycan Partiyasının öz mövcud qüvvə və potensialına yeni bir baxış, siyasi sistemin mühüm qolu olan qanunverici hakimiyyətdə yeni bir enerji ilə təmsil olunma imkanı verən əhəmiyyətli fürsətdir. Çox böyük seçki təcrübəsi olan, cəmiyyətin bütün sosial təbəqələrini əhatə edən Yeni Azərbaycan Partiyasının bu mühüm siyasi kampaniyada iştirakı siyasi zərurət olmaqla yanaşı, nəhəng elektorata malik təşkilat üçün sosial sifarişdir.

Yeni Azərbaycan Partiyasının İdarə Heyəti müzakirələrin yekunu olaraq 2020-ci il fevralın 9-da Milli Məclisə keçiriləcək seçkilərdə iştirakla bağlı qərar qəbul edib. İclasda, həmçinin Azərbaycan Respublikasının Milli Məclisinə keçiriləcək seçkilərdə YAP-ın səlahiyyətli nümayəndələri təyin olunub.

## Mübariz Qurbanlı: "Azərbaycanda din adı altında gizlənən qrupların baş qaldırmasının qarşısı alınıb"




"1948-ci il dekabrın 10-da BMT-nın Baş Məclisi İnsan hüquqları haqqında bəyannamə qəbul edib. Əgər bütün ölkələr bu bəyannaməyə əməl etmiş olsaydı, heç bir yerdə ekstremizim baş qaldırmazdı". Bunu Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı "Zorakı ekstremizm ilə mübarizə" adlı beynəlxalq konfransda deyib.

M.Qurbanlı bildirib ki, çox təəssüf ki, BMT səviyyəsində qəbul edilən bir çox sənədlər kağız üzərində qalır: "Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə bağlı qəbul edilən qətnamələr də indiyə qədər kağız üzərində qalıb. Ekstremizm və terrorizmə qarşı mübarizə mühüm əhəmiyyət kəsb edir. Dünyada ekstremizm, terrorizm nəticəsində minlərlə insan həlak olur''. Komitə sədri bildirib ki, ekstremist qruplar müxtəlif adlar altında gizlənir: "Burada xarici və daxili amilə də diqqət yetirməliyik. Bəzi yerlərdə ekstremist qrupların xarici amildən dəstəkləndiyini və hərəkət etdiklərini görürük. Bu gün dünyada baş verən münaqişələr nəticəsində 70 milyondan çox insan başqa yerlərə gedirsə, burada mədəniyyətlərin fərqliliyi yaranır və həmin qruplar arasında ziddiyyətlərə gətirib çıxarır". M.Qurbanlı vurğulayıb ki, Azərbaycan da müxtəlif ekstremist qrupların cəhd etdikləri məkanlardan biri kimi göstərilə bilər: "Ölkəmizdə din pərdəsi altında gizlənərək öz məqsədlərini həyata keçirməyə çalışan qruplar olub ki, onlara qarşı vaxtında profilaktik tədbirlər görmüşük. Qanun qəbul olunub. Bu, qanun din amilindən sui-istifadə edərək Azərbaycanda din adı altında ekstremist qrupların yaranmasının qarşısını almaq üçündür. Profilaktik tədbirlərlə ölkəmizdə xaricdən dəstəklənən, din adı altında gizlənən bu cür qrupların baş qaldırması önlənib". M.Qurbanlı əlavə edib ki, Azərbaycanda bütün dinlərin fəaliyyəti üçün şərait yaradılıb. Azərbaycan müsəlman ölkəsidir, əhalisinin 96 faizi müsəlmandır. Bununla yanaşı, dini konfensiyalar harmoniya içərisində yaşayır.

## DSX-nin hərbi hissə və bölmələrində ulu öndər Heydər Əliyevin xatirəsi anılıb

***Dövlət Sərhəd Xidmətinin (DSX) bütün hərbi hissə və bölmələrində xalqımızın xilaskarı, müasir müstəqil dövlətimizin memarı və qurucusu ulu öndər Heydər Əliyevin anım günü ilə əlaqədar tədbirlər keçirilib. DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, tədbir iştirakçıları əvvəlcə Heydər Əliyev İdeoloji mərkəzlərində dahi şəxsiyyətin nəsillərə nümunə olan həyat və fəaliyyətini əks etdirən çoxsaylı foto-ekspozisiya ilə tanış olub və büstü önünə gül dəstələri qoyublar.***





Tədbirlərdə çıxış edənlər ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısında misilsiz xidmətlərindən söz açıb, tarixə öz adını əbədi həkk etmiş fenomen şəxsiyyətin, hər bir Azərbaycan vətəndaşının qürur mənbəyinə çevrilən, Vətəninə hədsiz məhəbbət, xalqının tarixinə, mədəniyyətinə, milli-mənəvi dəyərlərinə böyük sevgi nümunəsi olan qüdrətli siyasi xadimin həyat və fəaliyyətindən bəhs ediblər.

Dahi Öndərin ölkəmizə rəhbərlik etdiyi illərin intibah, milli tərəqqi, müstəqil dövlət quruculuğu dövrü olduğu qeyd edilən tədbirlərdə böyük dövlət xadiminin müstəqil Azərbaycanın sərhəd mühafizəsinin inkişafındakı misilsiz xidmətləri minnətdarlıq hissi ilə xatırlanıb. Ulu Öndərin müəllifi olduğu milli sərhəd strategiyasının Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında müvəffəqiyyətlə yerinə yetirilməsi, ardıcıl həyata keçirilən islahatlar sayəsində Dövlət Sərhəd Xidmətinin sürətlə inkişaf edərək ölkəmizin sərhədlərini ən yüksək standartlar səviyyəsində mühafizə etməyə qadir olan bir quruma çevrilməsi qürur hissi ilə vurğulanıb.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə əldə edilən uğurların ulu öndər Heydər Əliyevin zəkasının təcəssümü, əmanət qoyub getdiyi ideyalarının təntənəsi olduğu xüsusi qeyd edilib. Tədbirlərin sonunda Ümummilli Liderin həyat və fəaliyyətinə həsr olunmuş sənədli filmlər nümayiş etdirilib.

# Azərbaycanda mövcud seçki sistemi və radikal müxalifətin əsassız iddiaları

*Siyavuş Novruzov, Yeni Azərbaycan Partiyası İcra katibinin müavini, Azərbaycan Respublikası Milli Məclisinin İctimai birliklər və dini qurumlar komitəsinin sədri*



***Bütün demokratik sistemlərdə seçki dövlət və ictimai təşkilatlarda vacib vəzifələrin tutulması üçün keçirilən demokratik üsuldur və dünya təcrübəsində qanunda nəzərdə tutulan reqlamentə uyğun olaraq əsasən gizli keçirilir. Müasir demokratiyanın bərqərar olmasının təsirli mexanizmləri sırasında seçkilər həlledici rol oynayır. Xalq hakimiyyətinin həyata keçirilməsinin təmin edilməsi seçkilər nəticəsində meydana çıxır. Seçkilər hakimiyyətin xalq etimadını və müdafiəsinin əldə etməsinin ən təsirli və sınanmış vasitəsidir. Bu mühüm vasitə cəmiyyəti sosial-hüquqi ədalətsizliklərdən və avtoritarizmin təzahürlərindən qoruyur.***

Ölkəmizdə Ulu Öndər Heydər Əliyev tərəfindən əası qoyulmuş demokratik və mütərəqqi seçki hüququ Azərbaycan Respublikasında seçkili dövlət orqanlarının təşkili qaydalarını nizamlayan hüquq normalarının sistemidir. Seçki hüququ ölkənin Konstitusiyası ilə müəyyən edilir. Konstitusiyanın "Əsas insan və vətəndaş hüquqları və azadlıqları" adlı III fəslində təsbit edilmişdir ki, Azərbaycan Respublikası vətəndaşlarının dövlət orqanlarına seçmək və seçilmək, habelə referendumda iştirak etmək hüququ vardır. Ölkəmizdə seçki hüququ sahəsində yaranan münasibətlər beynəlxalq ekspertlər tərəfindən də yüksək qiymətləndirilən Seçki Məcəlləsi ilə tənzimlənir.

Vətəndaşların seçmək və seçilmək hüququ Azərbaycan Respublikasında dövlət işlərinin və ictimai işlərin idarə olunmasında onların iştirakı haqqında Konstitusiya ilə verilmiş hüquqların ən mühüm hüquqi təminatıdır. Respublikanın 18 yaşına çatmış vətəndaşları seçki qanunları ilə müəyyən edilmiş qaydada ümumi, bərabər, birbaşa seçki hüququ əsasında sərbəst, şəxsi və gizli səsvermə yolu ilə seçib-seçilirlər.

Mənşəyinə, siyasi baxışlarına, sosial və əmlak vəziyyətinə, irqi və milli mənsubiyyətinə, cinsinə, təhsilinə, dilinə, dinə münasibətinə, məşğuliyyət növünə və xarakterinə görə Azərbaycan Respublikası vətəndaşlarının seçki hüquqlarının birbaşa, dolayısı ilə və ya başqa şəkildə məhdudlaşdırılması qadağandır.

Azərbaycan Respublikasında ilk konstitusiyanın qəbul olunduğu 1995-ci ildən bugünədək beş prezident (1998, 2003, 2008, 2013 və 2018), beş parlament (1995, 2000, 2005, 2010 və 2015), dörd bələdiyyə (1999, 2004, 2009 və 2014) seçkiləri keçirilmişdir. Sevindirici hal ondan ibarətdi ki, ölkəmizdə keçirilən hər bir seçki demokratiya yolunda irəliyə atılmış mühüm bir addım kimi qiymətləndirilmişdir. Bu dövr ərzində seçkilərin həm qanunverici, həm maddi-texniki bazası yüksək səviyyəyə qaldırılmış və bütün bu göstəricilər beynəlxalq ekspertlər tərəfindən müstəqil dəyərləndirilərək xüsusilə qeyd olunmuşdur.

Məmnunluq hissi ilə qeyd etmək istərdim ki, əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulan, hazırda isə möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyası bütün yuxarıda sadaladığımız seçkilərdə parlaq qələbələr qazanmış, seçki təcrübəsini artırmış və cəmiyyətdəki avanqard siyasi güc mərkəzi olduğunu dəfələrlə təsdiq etmişdir.

Lakin sirr deyil ki, seçkidənseçkiyə Azərbaycanı ardıcıl uğurlara aparan siyasi kursun davamı və çoxşaxəli xarakteri ölkəmizə təzyiq göstərmək niyyətində olan daxili və xarici dairələri daim narahat etməkdədir. Ölkəmizə qarşı yersiz və əsassız ittihamların bir çoxunu onlar hər seçki dövründə buradakı əlaltıları vasitəsilə məqsədyönlü şəkildə dilə gətirməkdədirlər.Hər zaman olduğu kimi 9 fevral 2020-ci ildə Milli Məclisə keçiriləcək növbədənkənar seçkilər ərəfəsində də bu dairələrin sözcülüyünü keçmişi qaranlıq , Azərbaycan siyasətindəki ən odioz fiqur- AXCP sədri Əli Kərimli boynuna götürüb.Ölkədə keçirilmiş seçkilərin legitimliyini daim şübhə altına alan bu şəxs indidən , hələ keçirilməmiş Parlament seçkilərini qeyri-demokratik olacağı istiqamətində haray-həşir salmaqdadır.Onun "arqumentlərini" nəzərdən keçirək.

Əvvəla o qeyd edir ki, seçki komissiyalarının tərkibi paritet əsaslarla formalaşmadığı üçün onların fəaliyyəti qeyri-şəffafdır.Onun korşalmış və pas tutmuş yaddaşının təzələmək üçün qısa bir tarixi ekskursiya edək. Belə ki, ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları bürosunun iştirakı ilə hələ 2000-ci ildə seçki komissiyaların tərkibi paritet əsaslarla formalaşmışdı.Lakin seçkilərin vaxtı elan olunmasına baxmayaraq müxalifət partiyaları nə MSK, nə DSK, nə də MnSK tərkiblərinə öz namizədlərini irəli sürmədilər.Parlament isə tətildə olmasına baxmayaraq fövqəladə toplandı və seçki komissiyalarının indiki tərkibdə yenidən qurulmasına qərar verdi.Lakin hətta indiki komissiyaların təşkilində belə Avropa Şurası,Venetsiya komissiyası, ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları bürosu ekspertlərinin rəyləri alındı.Yeri gəlmişkən , həmin bu Əli Kərimli məhz bu tərkibdəki komissiyaların fəaliyyəti dövründə, yəni 2000-ci ildə öz partiya yoldaşları ilə birgə Azərbaycan Respublikası Milli Məclisinə deputat seçildi.Amma nədənsə o zaman komissiyaların tərkibi məsələsi onu qətiyyən narahat etmirdi.

Radikal müxalifətin tənqid hədəflərindən biri də seçki məcəlləsinin namizədlərin qeydə alınması ilə bağlı tələblərin guya sərtləşməsi ilə bağlıdır.Halbuki vaxtilə hər namizəd üçün 2000 imza toplamaq şərti mövcud idisə, hazırda qanun tələbi cəmi 450 imzaya endirilib.(Bax:Seçki Məcəlləsi maddə 147.1) Habelə, əgər seçki məcəlləsinin əvvəlki müddəalarına diqqət yetirsək , görərik ki, bir seçici yalnız bir namizəd lehinə imza verə bilərdisə, hazırda bu baxımdan heç bir məhdudiyyət yoxdur (Bax:Seçki Məcəlləsi maddə 147.2)

Siyasi opponentlərimizin üzərində durduğu digər bir məqam siyasi partiyalara seçki öncəsi bərabər rəqabət şəraitinin guya yaradılmaması ilə bağlıdır. Halbuki 60-dan artıq dairədə namizədi qeydə alınan siyasi partiyalar, siyasi partiyaların blokları hər bir seçki komissiyasının tərkibinə bir məşvərətçi səs hüquqlu üzv təyin edə bilərlər.Birmandatlı seçki dairəsi üzrə qeydə alınmış namizəd müvafiq dairə seçki komissiyasına və seçki dairəsi ərazisində yerləşən hər bir məntəqə seçki komissiyasına bir məşvərətçi səs hüquqlu üzv təyin bilər. (Bax:Seçki Məcəlləsi maddə 148.6) Seçki komissiyasının məşvərətçi səs hüquqlu üzvü olduqca geniş səlahiyyətlərə sahibdir. Belə ki, o seçki bülletenlərini və səsvermə üçün qeydiyyatdan çıxma vəsiqələrini verməк, seçki büllütünlərini saymaq, seçki bülletenlərini və səsvermə üçün qeydiyyatdan çıxma vəsiqələrini ləğv etmək, səsvermənin yekunları və nəticələri haqqında protokolları tərtib etmək, seçki komissiyasının səlahiyyətinə aid məsələlər üzrə qərarlar qəbul edərkən səs vermək,müvafiq seçki komissiyasının qərarını imzalamaq hüquqları istisna olmaqla, seçki komissiyasının həlledici səs hüquqlu üzvü ilə eyni hüquqlara malikdir. (Bax:Seçki Məcəlləsi maddə 22.9)

Eyni zamanda birmandatlı seçki dairəsi üzrə qeydə alınmış namizədin 10-a qədər vəkil edilmiş şəxs təyin etmək hüququ vardır (Bax:Seçki Məcəlləsi maddə 152.1). Nəzərə almaq lazımdır ki, bu şəxslər həm də dairə və məntəqələrdə müşahidəçilik missiyasını da yerinə yetirə bilərlər. Müşahidəçilərin isə qanunvericiliyə görə olduqca mühüm səlahiyyətləri vardır: seçki günü istədiyi vaxt müvafiq seçki məntəqəsinin səsvermə otağında olmaq, seçici siyahıları ilə tanış olmaq, səsvermənin təşkili ilə əlaqədar təklif və iradlarla məntəqə seçki komissiyasının sədrinə və ya onu əvəz edən şəxsə müraciət etmək, seçki qutusundan çıxmış seçki bülletenlərinin sayılmasını müşahidə etmək, müşahidənin nəticələrinə dair rəyin seçki komissiyasının protokuna əlavə olunmasını tələb etmək və s. (Bax:Seçki Məcəlləsi maddə 40-44).

Seçki Məcəlləsi seçkiqabağı təşviqatın aparılması üçün bütün namizəd siyasi partiya və siyasi partiya blokları üçün bərabər şərtlər təsbit etmişdir. Belə ki, bütün tərəflər üçün müvafiq icra hakimiyyəti orqanı seçki dairəsi ərazisində birbaşa təbliğat-təşviqatın həyata keçirilməsi üçün açıq və qapalı məkanlar ayırır. Eyni zamanda birmandatlı seçki dairələrinin 60-dan çoxunda namizədləri qeydə alınmış siyasi partiyaların və siyasi partiyalar bloklarının seçkiqabağı təşviqatı üçün həftədə üç saatdan az olmayaraq pulsuz efir vaxtı ayrılır (Bax:Seçki Məcəlləsi maddə 80). Habelə, dövlət qəzetlərində təşviqat xarakterli pulsuz elanlar verilə bilər (Bax:Seçki Məcəlləsi maddə 77.2).

Göründüyü kimi, Azərbaycan Respublikasında mövcud qanunverici baza ən demokratik, azad şəffaf və plüralist əsaslarla istənilən səviyyədə (prezident, parlament, bələdiyyə) seçkilər keçirməyə imkan verir. Sadəcə, vətəndaş və ya siyasi partiya olaraq, öz hüquqlarını bilmək və bundan maksimum yararlanmaq lazımdır. Zənnimcə, ölkənin radikal müxalifətini seçkilərdə iştirakdan çəkindirən ən vacib amil şübhəsiz ki, qanunverici baza deyil. Əsl çəkindirici amil ənənəvi müxalifətin getdikcə marginallaşması, bunun da məntiqi nəticəsi olaraq, ilk növbədə elektratın getdikcə zəifləməsi və nəhayət xalqa deməyə sözünün olmamasıdır.

Yekunda əminliyimi ifadə etmək istərdim ki, Azərbaycan xalqı növbəti parlament seçkilərinə də böyük inamla gedəcək və bu mühüm siyasi kampaniya demokratiya tariximizdə növbəti parlaq səhifə açacaqdır. Ən böyük legitimlik isə xalqın iradəsidir.

# Rövnəq Abdullayev: Azərbaycanda sənaye üsulu ilə 2 milyard tondan çox neft hasil edilib

***Azərbaycanda sənaye üsulu ilə 2 milyard tondan çox neft və 900 milyard kubmetrə yaxın təbii qaz hasil edilib.***

Bunu Bakıda "Baker Hughes" tərəfindən təşkil olunan "Energy Forward" neft-qaz texnologiyası tədbirində Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) prezidenti Rövnəq Abdullayev bildirib. /Trend/ Onun sözlərinə görə, bu gün işlənmədə, lakin ehtiyatları tükənmək üzrə olan yataqlarımızın sırasına yüz illərlə tarixə malik "Bibiheybət", "Balaxanı", "Suraxanı" kimi yataqlar var. Bu yataqlar yüksək su tərkibli olmasına baxmayaraq hələ də məhsuldar laylara malik, aqressiv korroziya və eroziya mühiti ilə səciyyəvi yataqlardır.



R.Abdullayev onu da əlavə edib ki, bura ağır neftli qeyri-ənənəvi yataqlar, sahilə yaxın yerləşən dayazsulu və özünəməxsus xüsusiyyətlərə malik olan "Bahar", "Qərbi Abşeron" yataqları, nəhəng "Neft Daşları", "Səngəçal-Düvannı-Xərə Zirə" yataqları, "Günəşli" yatağının dayazsulu hissəsi və nəhayət "Bulla", "Şahdəniz", "Ümid", "Abşeron" kimi son dərəcə çətin, yüksək təzyiqli və yüksək temperaturlu yataqlar da daxildir.

## İranla Azərbaycan arasında yük və sərnişin daşınması üçün yeni aviareyslər açılacaq



İran ilə Azərbaycan arasında yük və sərnişin daşınması üçün yeni aviareyslər açılacaq.

AZƏRTAC xəbər verir ki, bu barədə İranın Əlborz vilayətindəki Payam beynəlxalq hava limanının baş direktoru Nadir Sanai deyib. O bildirib ki, dekabrın 3-də Bakıda səfərdə olarkən Azərbaycanın müvafiq qurumlarının rəhbərləri ilə görüşlər keçirib. Qərara alınıb ki, Payam beynəlxalq hava limanından Bakıya birbaşa uçuşlar təşkil olunsun.

# Səbail rayonunda Ulu Öndər Heydər Əliyevin əziz xatirəsi ehtiramla yad olunub

**Dünən YAP Səbail rayon təşkilatının və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının birgə təşkilatçılığı ilə müasir Azərbaycan dövlətinin qurucusu və Yeni Azərbaycan Partiyasının yaradıcısı Ulu Öndər Heydər Əliyevin əbədiyaşar xatirəsinə həsr olunan anım tədbiri keçirilib. İlk öncə, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Sonra Ulu Öndər Heydər Əliyevin zəngin dövlətçilik fəaliyyətinə həsr olunun videofilm nümayiş olunub.**





Tədbiri giriş sözü ilə açan Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov Ulu Öndər Heydər Əliyev şəxsiyyətinin Azərbaycanın müasir siyasi tarixindəki əvəzolunmaz xidmətləri haqqında danışıb. Müasir iqtisadi inkişafımızın əsasını təşkil edən Heydər Əliyev Neft Strategiyasını və "Əsrin Müqaviləsi"nin imzalanmasının əhəmiyyətini xüsusi qeyd edən rektor bildirib ki, möhtərəm Prezidentimiz İlham Əliyev Ulu Öndər Heydər Əliyev siyasətini və yolunu yeni müstəvidə uğurla davam etdirir. Bu gün Azərbaycan dünyada tanınan, beynəlxalq münasibətlərdə öz sözü və yeri olan, dinamik inkişaf edən modern və güclü dövlətə çevrilmişdir.

Tədbirdə çıxış edən Milli Məclisin deputatı, YAP Səbail rayon təşkilatının sədri Şəmsəddin Hacıyev bütün varlığı ilə müstəqil Azərbaycan dövlətçiliyinə bağlı olan Ümummilli Lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi hər iki hakimiyyət dövründə taleyin hökmü ilə Azərbaycan xalqı və milli dövlətçiliyimiz üçün yerinə yetirdiyi böyük tarixi missiyalardan danışıb. Ulu Öndər Heydər Əliyevin, sözün əsl mənasında, müstəqil Azərbaycan dövlətinin qurucusu olduğunu qeyd edən deputat bildirib ki, dinamik inkişaf edən və ildən-ilə siyasi, iqtisadi, beynəlxalq nüfuzu yüksələn müasir Azərbaycanın müstəqillik dövründə əldə etdiyi bütün uğurların bünövrəsi dahi siyasətçi və görkəmli dövlət xadimi Heydər Əliyev amili və Heydər Əliyev Şəxsiyyəti ilə bağlıdır. Ş.Hacıyev vurğulayıb ki, zaman keçdikcə, Heydər Əliyev dühasının əzəmətini, böyüklüyünü daha çox hiss edir, həyata keçirdiyi çoxşaxəli işlərin, xalqımız və müstəqil dövlətçiliyimiz üçün ən çətin, taleyüklü anlarda yerinə yetirdiyi xilaskarlıq missiyaların nəhəngliyini daha dərindən dərk edirik. Azərbaycan xalqı Ulu Öndər Heydər Əliyevin əbədiyaşar xatirəsini ehtiramla yaşadır və hər bir Azərbaycan vətəndaşı böyük qürur və fərəh hissi ilə hər zaman qeyd edir ki, nə yaxşı ki, müstəqil dövlətçiliyimizin ən mürəkkəb, taleyüklü məsələlərinin həll olunduğu şəraitdə, Azərbaycan xalqına Heydər Əliyev kimi böyük və cəsarətli Lider rəhbərlik edib.

Ulu Öndər Heydər Əliyev zəngin dövlətçilik və idarəçilik irsi haqqında tədbir iştirakçılarına xronoloji ardıcıllıqla geniş və ətraflı məlumat verən Ş.Hacıyev Sovet dövründə Heydər Əliyevin yalnız şəxsi bacarığı, istedadı və işgüzarlığı ilə gənc yaşlarından etibarən dünyanı idarə edən iki nəhəng dövlətdən birinin ən yüksək rəhbər vəzifələrinə qədər yüksələn ilk müsəlman-türk, azərbaycanlı olmasını, 1969-cu ildə müttəfiq respublikalar arasında ən geridə qalmış aqrar-xammal ölkələrindən biri olan Azərbaycana rəhbər təyin olunmasından sonra cəmi 13 il ərzində Azərbaycan SSR-i Sovet respublikaları sırasında ən sürətlə inkişaf edən və özünü tam təmin edən arqar-sənaye respublikasına çevirməsini, SSRİ kimi fövqəldövlətdə yüksək məsuliyyət tələb edən elm, təhsil, mədəniyyət, nəqliyyat, maşınqayırma, dəmir yolları və digər mühüm strateji sahələrə, məhz Heydər Əliyevin rəhbərlik etməsini və bu sahələrin inkişafında əhəmiyyətli nəticələrin əldə edilməsini xüsusi vurğulayıb. Millət vəkili Azərbaycanın müstəqilliyini bərpa etdikdən sonra Heydər Əliyevin xalqın istəyi və dəstəyi ilə 1993-cü ilin iyununda Azərbaycanda hakimiyyətə gəlməsini, Onun tarixi qurtuluş missiyasının başlanğıcı olduğunu diqqətə çatdırıb.

Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı daha bir tarixi missiyasının, sağlığında özünün siyasi varisinin müəyyənləşdirməsi olduğunu diqqətə çatdıran Ş.Hacıyev qeyd edib ki, zaman bu seçimin nə dərəcədə düzgün, müdrik və uzaqgörən qərar olduğunu sübuta yetirdi. Azərbaycan xalqına firavan həyat və güclü dövlət bəxş etmiş Heydər Əliyev siyasəti bu gün Möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən tamamilə yeni keyfiyyət müstəvisində dünyada gedən proseslər və yeni çağırışlar əsasında uğurla davam etdirilir. Ölkə başçısının rəhbərliyi ilə Azərbaycanda son 16 ildə möhtəşəm işlər görülmüş, ən böyük dəyərimiz olan ictimai-siyasi sabitliyimiz təmin olunmuş, iqtisadiyyatımız sürətlə inkişaf etmiş, beynəlxalq aləmdə Azərbaycan etibarlı tərəfdaş imici qazanmışdır. 2018-ci ildən etibarən ölkəmizdə davamlı, tarazlı, şaxələndirilmiş inkişaf və cəmiyyət həyatının bütün sahələrini əhatə edən əsaslı islahatlar həyata keçirilir və müsbət nəticələr də göz önündədir. Azərbaycan öz inkişaf yolu ilə gedir, bu yol Heydər Əliyev yolu və İlham Əliyevin cəsarətli, müstəqil, uzaqgörən siyasət yoludur. Bu siyasət Azərbaycanı gələcəkdə də çox uğurlara aparacaq.

YAP Səbail rayon "İdarəedicilər" ərazi ilk partiya təşkilatının sədri, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının fakültə dekanı professor Elçin Əhmədov Ulu Öndər Heydər Əliyevin hələ SSRİ-nin varlığını davam etdirdiyi illərdə Azərbaycanın müstəqilliyi yolunda atdığı cəsarətli addımlar, Yeni Azərbaycan Partiyasının yaradılmasını zəruri edən ictimai-siyasi proseslər, Ulu Öndər Heydər Əliyevin zəngin dövlətçilik təcrübəsi, ölkədə rəhbərliyə qayıtdıqdan sonra həyata keçirdiyi mühüm və təxirəsalınmaz qərarlardan söz açıb.

Tədbirdə çıxış edən Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Siyasi idarəetmə" fakültəsinin III kurs tələbəsi İlahə Balakişiyeva bildirib ki, Ulu Öndər Heydər Əliyevin zəngin dövlətçilik irsi gənclər üçün böyük nümunədir. Bu gün vətənpərvərlik ruhunda formalaşan Azərbaycan gəncliyi ölkəmizin son 16 ildə əldə etdiyi misilsiz nailiyyətlərdən ruhlanır və onlara göstərilən yüksək etimada layiq olmağa çalışır.

Tədbirin sonunda Yeni Azərbaycan Partiyası sıralarına yeni qəbul olunan Dövlət İdarəçilik Akademiyasının tələbələrinə partiya üzvlük vəsiqələri təqdim olunub.

***Rəfiqə KAMALQIZI***

# Azərbaycan anası zərif çiyinlərində bu qədər böyük missiyanı götürüb

*Dərya Akdemir: "Mehriban Əliyeva bu gün Azərbaycan mədəniyyətinin hamisidir"*

***"Azərbaycanın Birinci Xanımı, ilk növbədə, milli mədəniyyətimizin keşiyində dayanan bir işıq insanıdır". Bu fikirləri Türkiyə Respublikasının paytaxtı Ankara şəhərində yerləşən Ankara-Azərbaycan Mədəniyyət, Rəqs və Sənət Klubunun rəhbəri Dərya Akdemir deyib.***



"Sevinirəm ki, Mehriban Əliyeva bu gün Azərbaycan mədəniyyətinin hamisidir" deyən Akdemir, əlavə edib ki, müasir dövrdə qadınların cəmiyyət həyatında fəal bir şəkildə təmsil edilməsi, gender bərabərliyi kimi məsələlər bütün bəşəriyyət üçün xüsusi aktuallıq kəsb edir.

Azərbaycan qadınının müasir cəmiyyətimizdə aktiv şəkildə təmsil olunmasının Azərbaycan Respublikasının I vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti Mehriban Əliyevanın adı ilə sıx surətdə bağlı olduğunu deyən klub rəhbəri, həmçinin, bildirib ki, tarixən özünün intellektual potensialı və milli-mənəvi zənginliklərə bağlılığı ilə seçilən Azərbaycan qadını bu gün də, məhz Mehriban xanımın timsalında cəmiyyətin bütün sahələrində özünü göstərir: "Mən Azərbaycandan kənarda yaşayan bir azərbaycanlı xanım kimi, Onun Azərbaycan mədəniyyətinin inkişafı üçün göstərdiyi xidmətləri, xüsusi olaraq, vurğulamaq istəyirəm. Çünki danılmaz bir faktdır ki, Azərbaycanın Birinci Xanımı ölkəmizin müstəqilliyinin ilk dövrlərindən etibarən, milli mədəniyyətimizin qorunması və inkişafı istiqamətində geniş fəaliyyət göstərir. Onun mədəniyyətə və incəsənətə göstərdiyi qayğı ilə əlaqədar fəaliyyətinin böyük bir hissəsi 2004-cü ildə yaratdığı Heydər Əliyev Fondunun adı ilə üzvü surətdə bağlıdır. Belə ki, həmin fondun təşkilatçılığı ilə, mütəmadi olaraq, xarici ölkələrdə Azərbaycan mədəniyyətinin təbliğinə yönələn tədbirlər həyata keçirilir. Sonuncu dəfə Bakıda olanda, Onun təşəbbüsü ilə inşa olunmuş Muğam Mərkəzini görəndə, ürəyim dağa döndü. Azərbaycandan kənarda yaşasam da, Azərbaycan mədəniyyətini beynəlxalq arenada təmsil etməyə çalışan bir sənət adamı kimi görürəm və duyuram ki, Azərbaycanın Birinci xanımı, ilk növbədə, milli mədəniyyətimizin keşiyində dayanan bir işıq insanıdır. Məhz Onun təşəbbüsü ilə ənənəvi milli musiqimizin, ədəbiyyatımızın və incəsənətimizin inkişafı ilə bağlı olduqca mühüm fəaliyyət istiqamətləri müəyyən olunub və bu yöndə ciddi addımlar atılır. Azərbaycan muğam sənətinin dünyada tanınması istiqamətində böyük işlər görülür".

"Dəfələrlə yaşadığım Ankara şəhərində səfirliyimizin də diqqəti və qayğısı ilə muğamın tanıdılması üçün böyük layihələr həyata keçirilib" deyən Dərya Akdemir, onu da bildirib ki, hər dəfə həmin konsert proqramlarını rəhbəri olduğu Ankara - Azərbaycan Rəqs və Sənət Klubunda rəqslərimizin incəliklərini öyrənən uşaqlarımı izləyəndə, ürəyi dağa dönüb və "nə yaxşı ki, mədəniyyətimizin keşiyində dayanan belə hamimiz var" deyib: "Mehriban xanım, sadəcə, təbliğatçı deyil, bayaq da dediyim kimi, Azərbaycan mədəniyyətini oğurlamağa, öz adına çıxmağa çalışan düşmənlərimizin qarşısında dayanan mədəniyyətimizin qoruyucusudur. Sevinirəm ki, Azərbaycan qadını, Azərbaycan anası zərif çiyinlərində bu qədər böyük missiyanı götürüb və uğurla ölkəmizin mədəniyyətini dünyada təbliğ edir".

***Rövşən RƏSULOV***

# Qədirbilən Azərbaycan xalqı Ulu Öndər Heydər Əliyevin misilsiz xidmətlərini çox yüksək qiymətləndirir, Onun əziz xatirəsini daim öz qəlbində yaşadır

*Azərbaycan Respublikası Dövlət Sığorta Şirkətinin sədri, əməkdar iqtisadçı Məmməd Məmmədovun yap.org.az-a müsahibəsi*

***- Məmməd müəllim, dekabrın 12-də Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anım günüdür. Sizcə, Ulu Öndərimizin Azərbaycanın dövlətçilik tarixində yeri və rolu nədən ibarətdir?***

- Zəngin dövlətçilik tarixinə malik Azərbaycan bu gün dünya siyasi arenasında layiqli yer tutan, etibarlı tərəfdaş, dinamik inkişaf edən ölkə kimi tanınır. Təbii ki, ölkəmiz bu mərhələyə - bugünkü yüksəliş və inkişaf dövrünə asanlıqla çatmayıb. Azərbaycanın müstəqil, qüdrətli ölkə kimi tərəqqi yoluna çıxmasında lider amili əvəzsiz - həlledici rol oynayıb. Bəli, biz bu gün böyük qürurla qeyd edirik ki, müasir müstəqil Azərbaycan Ümummilli Lider Heydər Əliyevin şah əsəridir. Yəni Ulu Öndər müstəqil Azərbaycanın banisi, xalqımızın və dövlətimizin xilaskarıdır. Bir məqama xüsusi diqqət yetirmək lazımdır: bu nüans ondan ibarətdir ki, Ulu Öndər Heydər Əliyev həm SSRİ dönəmində, həm də müstəqillik illərində ölkəmizə rəhbərliyi dövründə xalqımız, dövlətimiz qarşısında misilsiz xidmətlər göstərib. Yəni xalqımızın rifah halının daha da yaxşılaşdırılması, respublikamızın tərəqqisinin təmin olunması və digər istiqamətlərdə əvəzsiz işlər görülüb. Yəni Ümummilli Liderin Azərbaycan xalqı və dövləti qarşısındakı tarixi xidmətləri Onun fəaliyyətinin bütün mərhələlərini əhatə edir.

Bu gün qədirbilən Azərbaycan xalqı Ulu Öndərin misilsiz xidmətlərini çox yüksək qiymətləndirir, Heydər Əliyevin əziz xatirəsini daim öz qəlbində yaşadır. Çünki Heydər Əliyev Azərbaycanı xaosdan, tənəzzüldən xilas edərək tərəqqi yoluna çıxarıb, respublikamızın sürətli yüksəlişini - inkişafını təmin edib, müstəqilliyimizi daimi və əbədi etməyə nail olub. Bütün bu nailiyyətlərin təməlini təşkil edən başlıca amil Ümummilli liderin Öz xalqının rifahı üçün böyük fədakarlıqlar nümayiş etdirərək yorulmaz və səmərəli fəaliyyət göstərməsi idi. Xalqına dərindən bağlı olan və böyük məhəbbət bəsləyən, vətənpərvər şəxsiyyət olan Heydər Əliyev fəaliyyətinin bütün dövrlərində xalqa ləyaqətlə xidmət edib, Azərbaycanı inamla irəliyə aparıb.



***- Bu gün Azərbaycanın hər bir guşəsində Ulu Öndər Heydər Əliyev böyük ehtiramla anılır. Onun xalqımız qarşısındakı xidmətləri tariximizə qızıl hərflərlə yazılıb...***

- Ulu Öndər Heydər Əliyev güclü dövlət ideyasına sadiq qalaraq ilk növbədə sosial problemlərin həlli sahəsində dövlətin rolunun artırılmasına xüsusi əhəmiyyət verirdi. Bir yandan inflyasiya, iqtisadiyyatın güclü böhran yaşaması, əvvəlki iqtisadi əlaqələrin dağılması və yenilərinin yaranmaması, bir yandan isə ölkəmizin zorla cəlb olunduğu Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi fonunda əhali yoxsulluq həddinə düşmüş, özlərinin minimal sosial tələbatlarını ödəmək imkanlarından məhrum olmuşdu. Təbii ki, cəmiyyət həyatının bütün sahələrində olduğu kimi yenə də bütün yük sosial siyasətin başlıca subyektinin - dövlətin üzərinə düşürdü.

Yeni, kövrək addımlarını atan Azərbaycan özünün hədəflərini düzgün müəyyən etmişdi. Bu, demokratik, hüquqi, iqtisadi aspektdə bazar münasibətlərinə rəvac verən, sahibkarlığı və çoxmülkiyyətçiliyi dəstəkləyən, sosial aspektdə isə hər kəsin layiqli həyat səviyyəsini təmin etməyi öhdəsinə götürən bir dövlət ideyası idi. Şübhəsiz ki, totalitar rejimdən çıxmış, uzun illər dövlətçilik ənənəsindən məhrum olmuş, iqtisadiyyatı dərin böhran keçirmiş bir ölkə üçün transformasiya prosesi elə də asan və rahat olmayacaqdı. Əslində Azərbaycanda dövlətin transformasiyası totalitar rejimdən demokratik cəmiyyətə keçidi təmin etməyə istiqamətlənmişdi. Buna isə radikal addımlarla nail olmaq mümkün deyildi. Bu mənada Ulu Öndər Heydər Əliyev məhz islahatlar yolunu seçmişdi.

Bu gün gündən-günə tərəqqi edən Azərbaycanın hansı guşəsinə baxsan, gözümüzün önündə Ulu Öndər Heydər Əliyevin vətənimiz və xalqımız üçün gördüyü möhtəşəm işlər canlanır. Heydər Əliyevin tariximizdə oynadığı rol illər keçdikcə daha dərindən dərk edilir, təhlil olunur və əsl qiymətini alır.

***- Ulu Öndər Heydər Əliyevin Azərbaycanda sığorta sahəsinin inkişafı ilə bağlı xidmətləri haqqında da fikirlərinizi bilmək istərdik...***

- Ulu Öndər Heydər Əliyevin hakimiyyətdə olduğu dövrdə Azərbaycanda sığorta sahəsi yeni inkişaf yoluna qədəm qoymuşdur. Belə ki, ölkəmizdə milli sığorta bazarı ötən əsrin 90-cı illərinin ortalarında formalaşmağa başlamışdır. Azərbaycanın tarixində ilk dəfə olaraq Milli Məclis tərəfindən "Sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Bu qanunla ölkəmizdə sığorta işi hüquqi bazaya malik olmuş, milli sığorta bazarının yaranmasına şərait yaradılmışdır.

Sığorta bazarının daha da inkişaf etdirilməsi məqsədilə 1996-cı ildə MDB ölkələri arasında ilk dəfə Azərbaycan Respublikasında avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası haqqında Qanunu qəbul edildi.

Müstəqilliyimizin ötən dövründə Ulu Öndər Heydər Əliyev tərəfindən imzalanmış fərman və sərəncamlar, qəbul olunmuş qanunlar, qərarlar və digər normativ-hüquqi aktlar respublikada sığorta bazarının inkişafına zəmin yaratmışdır. Ali Baş Komandanın yeni formalaşan silahlı qüvvələrin hərbçilərinə, daxili işlər orqanlarının əməkdaşlarına diqqət və qayğının təzahürü olaraq, onların sosial müdafiəsini gücləndirmək məqsədilə "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" və "Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında" Qanunlar qəbul edilmişdir.

1994-cü il 20 sentyabrda Azərbaycan üçün çox əhəmiyyətli olan neft hasilatı ilə əlaqədar olan "Əsrin müqaviləsi" imzalanandan sonra bu işi həyata keçirən Beynəlxalq Əməliyyat Şirkətinin bütün risklərinin frontiq sığortası Dövlət Sığorta Kommersiya Şirkəti tərəfindən həyata keçirilmişdir. Şirkət Londonun "Lloyd" sığorta korporasiyasının "Secviq" broker qrupu vasitəsilə Beynəlxalq Əməliyyat Şirkətinin risklərini sığortalayaraq beynəlxalq təkrar sığorta bazarında tanınmışdır.

Respublikada iqtisadiyyatın və sığortanın inkişaf etdirilməsi ilə əlaqədar 1995-ci ildə İngiltərənin "Adam Smit" Universitetinin təşəbbüsü ilə keçirilən və mənim də iştirak etdiyim simpoziumda Ulu Öndər Heydər Əliyev iqtisadiyyatın bütün sahələri kimi sığorta bazarının inkişafı ilə bağlı çıxışında da belə demişdir: "Sığorta - Azərbaycan üçün nisbətən yeni və axıra qədər öyrənilməyən sahədir. Biz şübhəsiz ki, sığorta işini inkişaf etdirməliyik, lakin bu işi düzgün və peşəkarcasına yerinə yetirməliyik".

Onu da qeyd edmək istəyirəm ki, mən 28 yaşımda Bakı Əmanət Bankının rəisi vəzifəsinə Ulu Öndər Heydər Əliyevin xeyir duası ilə təyin edilmişdim. Hər zaman tutduğum məsul vəzifələrdə Ulu Öndərin etimadını doğrultmağa çalışmışam.

***- Hazırda Heydər Əliyev siyasəti Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən layiqincə davam etdirilir. Heydər Əliyev siyasətinin bu gün dövlətimizə qazandırdığı uğurlar barədə nə deyə bilərsiniz?***

- Məhz xalqımızın Ümummilli Lideri Heydər Əliyevin uzaqgörən siyasəti və gərgin fəaliyyəti nəticəsində dövlət müstəqilliyinin bərpasından sonra ötən qısa müddət ərzində ölkəmiz sosial-iqtisadi inkişaf və dünya sisteminə inteqrasiya sahəsində çox böyük nailiyyətlər əldə edib. Ən böyük nailiyyətlərimizdən biri də ondan ibarətdir ki, bu dövrdə ölkəmizdə aparılan müstəqil dövlət quruculuğu prosesində sosial-iqtisadi islahatların və inkişafın mahiyyət etibarilə yeni bir modeli -Azərbaycan modeli yarandı.

Bu gün Ulu Öndərin milli dövlətçilik konsepsiyasının bütün atributları öz real təsdiqini tapmaqla Azərbaycanı iqtisadi, siyasi, sosial, humanitar inkişaf yoluna çıxarmışdır. Əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və son 16 ildə davam etdirilən siyasət nəticəsində regionun lider dövlətinə çevrilən Azərbaycan hər keçən gün ərzində yeni-yeni uğurlar əldə edir. Məhz bu uğurların fonunda beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi qəbul edilən ölkəmiz, eyni zamanda, nüfuzlu beynəlxalq tədbirlərin keçirildiyi məkan kimi də tanınır. Bir sözlə, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən uğurlu siyasət, həmçinin müxtəlif sahələri əhatə edən islahatlar öz müsbət nəticələrini verməkdədir.

Vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi, əhalinin aztəminatlı təbəqələrinə kömək göstərilməsi, yoxsulluğun aradan qaldırılması Azərbaycanda dövlət siyasətinin başlıca istiqamətlərindən biridir. Son illərin reallıqları ondan ibarətdir ki, ölkəmizin dinamik iqtisadi inkişafı sığorta bazarına təsirsiz ötüşməyib. İqtisadiyyatda həyata keçirilən köklü dəyişikliklər makroiqtisadi sabitliyi təmin etməklə bərabər, əhalinin sosial müdafiəsini daha da gücləndirmək üçün sığorta bazarının davamlı inkişafı üçün möhkəm zəmin yaradıb.

Bu gün ölkə həyatının bütün sferalarında olduğu kimi, mühüm sahələrdən biri olan sığorta bazarının inkişaf etdirilməsi, təkmilləşdirilməsi, beynəlxalq standartlara uyğun təşkil edilməsi üçün möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən müvafiq normativ-hüquqi aktlar təsdiq edilir.

Onu da deyim ki, ölkə iqtisadiyyatının, sənayesinin, kənd təsərrüfatının inkişafı, əhalinin maddi-rifah halının gündən-günə yaxşılaşdırılması sığorta işinin inkişafına əsaslı zəmin yaradır. Bu məqsədlə Dövlət Sığorta Şirkəti əhaliyə daha dolğun sığorta təminatı yaratmaq üçün 8 icbari və 29 könüllü növ üzrə sığorta xidməti göstərir.

Həyata keçirilən məqsədyönlü iqtisadi islahatlar, iqtisadiyyatın əsas göstəricisi olan ümumi daxili məhsul istehsalının dinamik inkişafı, əhalinin maddi-rifah halının yaxşılaşdırılması sığortanın mütəmadi inkişafına geniş zəmin yaradır.

Qeyd etmək lazımdır ki, Dövlət Sığorta Şirkəti ölkənin sığorta bazarında hər zaman lider yerlərdə olmuşdur. Şirkətin uğurlu fəaliyyətinə, fiziki və hüquqi şəxslərə keyfiyyətli sığorta təminatına və xidmətlərinə görə dəfələrlə beynəlxalq və milli mükafatlara layiq görülmüşdür.

# DSX: Heydər Əliyev Beynəlxalq Aeroportunun birinci terminalının gəlmə zalında 2 elektron qapı quraşdırılıb

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında turist axınının sürətləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 2017-ci il 20 fevral tarixli 2677 nömrəli Sərəncamına əsasən dövlət sərhədindən hərəkət edən şəxslərin sənədlərinin daha operativ və sürətlə rəsmiləşdirilməsi məqsədilə dövlət sərhədindən buraxılış məntəqələrində yeni texnologiyaların tətbiqi davam etdirilir. Bu məqsədlə Dövlət Sərhəd Xidmətinin (DSX) təşəbbüsü ilə pilot layihə olaraq Heydər Əliyev Beynəlxalq Aeroportunun birinci terminalının gəlmə zalında yeni 2 ədəd elektron qapı (e-gates) quraşdırılıb.

DSX-dan AZƏRTAC-a bildiriblər ki, bir sıra inkişaf etmiş ölkələrin dövlət sərhədin-




dən buraxılış məntəqələrində istifadə olunan elektron qapılar sərhəd nəzarətində tətbiq olunan qabaqcıl texnologiyaların ən effektiv nümunələrindəndir. Elektron qapıdan yalnız 16 yaşı tamam olan, biometrik sənədlərə malik Azərbaycan vətəndaşları istifadə edə biləcəklər. Vətəndaşlar elektron qapılar vasitəsilə sərhəd nəzarətindən aşağıdakı ardıcıllıqla keçə biləcəklər:

- dövlət sərhədindən hərəkət edən vətəndaş sənədlərini elektron qapının skan yerinə daxil edir.

- sənədin məlumatları və vətəndaşın elektron qapıda çəkilmiş biometrik fotoşəkili avtomatik məlumat bazasına daxil olur, məhdudiyyət siyahıları ilə yoxlanılır və pozuntu olmadığı halda vətəndaş 30 saniyə ərzində dövlət sərhədindən avtomatik buraxılır.

- vətəndaşın sənədi və ya məhdudiyyəti ilə bağlı pozuntu aşkarlandıqda sistem siqnal verir.

- 206 ölkənin 2897 növ biometrik sənədini yoxlaya bilən elektron qapılar şəxslərin dövlət sərhədindən sürətli keçidini, sərhəd nəzarətinin daha effektiv həyata keçirilməsini təmin etməyə imkan verəcək.

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEV - BÜTÜN ZAMANLARIN DAHİSİ

***Hər bir millət, hər bir dövlət yaşam tarixində torpağını, xalqını sevən, onu mübarizə meydanında qələbəyə, çətin anlarda işığa doğru aparan rəhbərə və şəxsiyyətə ehtiyac duyur. Sözün əsl mənasında, hər bir dövlətin, bir dövlət olaraq, formalaşmasında və millətin millətlər sırasında mətin dayanmasında böyük şəxsiyyətlərə daim ehtiyac var. Azərbaycanın adı bu gün dünya müstəvisində öndə gedən dövlətlər sırasında məğrur durur. Daim bu torpaq, bu millət dahilər və onun adını zirvələrə ucaldan şəxsiyyətlər yetirib. "Heç bir millət şəxsiyyətsiz yaşaya bilməz".***

Bu fikir Azərbaycan adını öndə gedən dünya ölkələri sırasına yazan, öz uzaqgörənliyi ilə dünya siyasətçilərini daim heyrətə gətirməyi bacaran, millətin hər bir nümayəndəsini ürəkdən sevən dahi şəxsiyyət, Ulu Öndər Heydər Əliyevə məxsusdur! Əslində, doğru





***FƏRRUX HAQVERDİYEV, YAP Xızı rayon təşkilatının sədri***

deyiblər ki, zaman hər şeyi yerbəyer edir, hər şeyin, hər kəsin doğru qiymətini verir. İllər keçdikcə, Ümummilli Liderimiz Heydər Əliyevin böyüklüyünü, müdrikliyini, xalqını və vətənini necə bir məhəbbətlə sevdiyini daha çox anlayırıq. Bu siyasət nəhənginin fəaliyyəti bütün bəşəriyyətin xoşbəxt gələcəyi uğrunda mübarizəyə həsr olunmuşdur. Belə ki, tarixin xalqımıza bəxş etdiyi dahi şəxsiyyətin, müasir Azərbaycanın xilaskarı və memarı, Ulu Öndər Heydər Əliyevin bütün fəaliyyətinin məqsədi Azərbaycanı güclü, demokratik dövlətə çevirmək və xalqına firavan həyat bəxş etmək idi. Azərbaycanın ən yeni tarixinin bütöv bir dövrü Onun şərəfli adı və möhtəşəm fəaliyyəti ilə bağlıdır. Onun Azərbaycana otuz ildən çox rəhbərliyi dövründə ölkəmiz bütün sahələrdə böyük inkişaf yolu keçib. O, bütün həyatını ölkəmizin yüksəlişinə və insanların xoşbəxtliyinə həsr etmişdir.

## Böyük Yaradan Heydər Əliyevi xalqımıza bir xilaskar kimi göndərdi

Böyük Şəxsiyyət Heydər Əliyev bəşər tarixinin bizə bəxş etdiyi ən böyük şəxsiyyətlərdən olmaqla, həm də Azərbaycanını və Azərbaycan xalqının ən çətin və məşəqqətli günlərində Ulu Öndər ikinci dəfə siyasi hakimiyyətə gəldi. Bu Qayıdış Azərbaycanın dərin böhran içərisində çapaladığı və bundan çıxış yolu tapmağın müşkül olduğu bir dövr idi. Həyat iflic vəziyyətə düşmüşdü, işsizlik əhalini acınacaqlı vəziyyətə gətirib çıxarmışdı. Bu vəziyyətin qarşısını almaq üçün respublikada elə bir səriştəli qüvvə yox idi, idarəçilik sistemini bütünlüklə iflic haldan xilas etməkdən ötrü güclü dövlət xadiminin yeri görünürdü. Yaxşı ki, xalqımız o vaxt Naxçıvanda yaşayan Ulu Öndər Heydər Əliyevi təkidlə Bakıya çağırdı. Ulu Öndərimizin xalqın yekdil dəvəti ilə Bakıya qayıdışı Azərbaycanda əsaslı dönüşün təməlini qoydu.

Beləliklə, böyük Yaradan Heydər Əliyevi taleyimizin ən çətin məqamında xalqımıza bir xilaskar kimi göndərdi və Onun gəlişi ilə ana yurdumuzun üzünə günəş doğdu. Labüd vətəndaş müharibəsinin və Azərbaycanı parçalamaq istəyən separatçıların qarşısı, məhz Ümummilli Liderimizin qətiyyətli tədbirləri nəticəsində alındı. Həmin tarixi andan başlayaraq xalqda öz gücünə və müstəqilliyinin dönməzliyinə inam artdı. Dahi Öndər Heydər Əliyevin ətrafında sıx birləşən xalqımız ruh yüksəkliyi ilə ölkənin problemlərini həll etməyə, dövlət və vətəndaş cəmiyyətinin formalaşdırılması prosesinin fəal iştirakçılarına çevrilməyə başladı. Anarxiya və xaos geniş quruculuq mərhələsi ilə əvəz olundu. Elə o vaxt dövlətçilik və müstəqilliyimiz naminə çox cəsarətli addımlar atıldı, eyni zamanda, Avropaya inteqrasiya prosesi sürətləndi.

Bu dövrdə ölkədə ictimai-siyasi sabitlik bərqərar oldu. Qətiyyətlə yürüdülən daxili və xarici siyasət nəticəsində, milli müstəqillik xətti dönmədən həyata keçirildi. Hüquqi-demokratik dövlət quruculuğu, milli ordunun formalaşması Azərbaycanın beynəlxalq aləmdə demokratik imicinin yüksəlməsi istiqamətində önəmli və ardıcıl addımlar atıldı, insan azadlığı və hüquqlarının qorunmasına etibarlı təminat yaradıldı.

Ulu Öndər Heydər Əliyevi özündən əvvəlki rəhbərlərdən fərqləndirən əsas cəhətlərdən biri bu idi ki, o, fəaliyyətinin ilk çağlarından insanlarla mövqeyindən və təmsil etdiyi təbəqədən asılı olmayaraq, yaxın təmas qura bilirdi. Bu dahi şəxsiyyət xalqın böyük oğlu idi, ondan bir an olsun belə ayrı yaşaya birmirdi. Onun məşhur kəlamı dillər əzbəridir: "MƏN FƏXR EDİRƏM Kİ, AZƏRBAYCANLIYAM!"

## Bizim borcumuz Heydər Əliyev ideyalarını bundan sonra da yaşatmaq və layəqətlə inkişaf etdirməkdən ibarət olmalıdır

Bu gün Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi qətiyyətli və müdrik siyasi kurs Prezident İlham Əliyevin dövlətçilik bacarığı və əvəzedilməz rəhbərlik qabiliyyəti sayəsində daha da inkişaf edir, respublikamızın müstəqilliyi və suverenliyi daha da möhkəmlənir, ölkəmiz gündən-günə varlanır, vətəndaşlarımız daha firavan yaşayırlar.

Cənubi Qafqazın ən nüfuzlu ölkəsinə çevrilmiş Azərbaycan bütün sahələrdə inkişaf edir. İqtisadiyyatı möhkəmlənir, respublikanın investisiya cəlbediciliyi artır və sahibkarlıq inkişaf edir. Bu isə ölkəmizin həyatında daha yeni bir mərhələdir, davamlı və sabit inkişafımızın göstəricisidir. Deməli, regional güc mərkəzi kimi beynəlxalq məkanda aparıcı məkana çevrilən Azərbaycan, postsovet respublikaları arasında keçid dövrünü başa vuran ilk dövlət olduğu kimi, inkişaf etmiş ölkələrin cərgəsinə də ilk qoşulan ölkə olacaq. Deməli, Ulu Öndər Heydər Əliyevin vəsiyyətləri öz bəhrəsini vermişdir, Onun arzuları çiçəklənmiş, növbəti möhtəşəm vəzifələrin yerinə yetirilməsi yolunda nurlu mayaka çevrilmişdir. Bizim borcumuz Heydər Əliyev ideyalarını bundan sonra da yaşatmaq, layəqətlə inkişaf etdirməkdən ibarət olmalıdır. Nə qədər ki, Azərbaycan xalqı var, Ulu Öndərimizin parlaq xatirəsi daim qəlbimizdə yaşayacaq, Onun mübariz əməlləri yüz illər bundan sonra da nəsillərə örnək olacaqdır.

## MƏHƏBBƏT İBRAHİMOVA: "Qadınlarımız bələdiyyə seçkilərinə hazırdır"

"Mərkəzi Seçki Komissiyasının qərarı ilə dekabrın 23-nə təyin edilmiş növbəti bələdiyyə seçkilərinin azad, ədalətli və şəffaf keçirilməsi üçün bütün zəruri tədbirlər görülür". Bu fikirləri "SƏS"ə Yeni Azərbaycan Partiyası Nərimanov rayon təşkilatının qadınlar şurasının sədri Məhəbbət İbrahimova sözügedən mövzu ilə bağlı açıqlamasında deyib. Onun sözlərinə görə, seçkilərin azad, ədalətli və şəffaf keçirilməsində, eləcə də, seçki iştirakçılarının maarifləndirilməsində və fəaliyyətlərinin təkmilləşdirilməsində hüquqi çərçivə və təkmil normativ-hüquqi baza da əhəmiyyətli rol oynayır. O cümlədən, ölkəmizdə keçirilən seçkilər daim yerli və beynəlxalq ictimaiyyətin maraq dairəsində olaraq, çoxsaylı yerli və beynəlxalq müşahidəçilərin iştirakı ilə xarakterizə olunub.



"Bələdiyyə seçkilərində, daha əvvəlki seçkilərdə olduğu kimi, qadınlarımız çox aktivlik göstərirlər" deyə qeyd edən M.İbrahimova əlavə edib ki, bu reallıq, eyni zamanda, ölkəmizdə aparılan uğurlar qadınlar siyasətinin bariz təcəssümüdür. Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Məhz bu siyasətin nəticəsidir ki, ölkəmizin nüfuzlu, ziyalı qadınları, eləcə də, cəmiyyətin digər təbəqələrini təmsil edən xanımlar YAP-ın sıralarında cəmləşiblər. Hazırda YAP üzvlərinin 40 faizdən çoxunu qadınlar təşkil edir: "Qadınların bələdiyyələrdə təmsil olunmaları günün tələbidir. Bələdiyyələr daha çox əhalinin sosial məsələləri ilə məşğul olan qurumdur. Bu baxımdan, qadınların yerli özünüidarəetmə orqanlarında iştirakı qadın ədalətinin, şəfqətinin və diqqətinin bu quruma gətirilməsi deməkdir. Azərbaycanın Birinci Xanımı, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın fəaliyyəti bu gün qadınlarımız üçün əsl nümunədir".

"Ötən bələdiyyə seçkilərindən qadınların fəallığı 10 dəfədən çox artıb", deyə xatırladan YAP Nəromanov rayon təşkilatının qadınlar şurasının sədri həmçinin bildirib ki, bu artım qadınlarımızın fəallığı, dünyagörüşü, həyata baxışı deməkdir: "Yeni Azərbaycan Partiyasını Bələdiyyə seçkilərində təhsilli, təşkilatçılıq bacarığına malik, əhali arasında özünəməxsus nüfuzu və hörməti olan qadınlarımız, gənclərimiz təmsil edirlər".

2004-cü ildə keçirilən bələdiyyə seçkilərində qadınların cəmi 4 faiz olduğunu xatırladan M.İbrahimova hazırda bu göstəricinin 30 faizə qədər yüksəldiyini və bu qadınların böyük əksəriyyətinin YAP-ın üzvləri olduğunu bildirib, partiya fəallarını dekabrın 23-də keçiriləcək bələdiyyə seçkilərində fəal olmağa çağırıb: "İnanırıq ki, ölkəmizin, dövlətimizin güclənməsində, inkişaf və tərəqqisində qadınlarımız bundan sonra daha fəal olacaqlar, Cənab Prezident İlham Əliyevin ətrafında sıx birləşərək, öz uğurlu ictimai-siyasi fəaliyyətlərini aparacaqlar. Bütün bunlar, eyni zamanda, demokratikliyin və şəffaflığın bariz göstəricisidir ki, bizlər bundan qürur duyur və fərəhlənirik".

***Rəfiqə HÜSEYNOVA***

## "Azərişıq": Bayram günlərində bütün mənzillərdə dayanıqlı və keyfiyyətli enerji təchizatının təmin olunması istiqamətində işlər görülür

İki həftə ərzində ölkənin bəzi ərazilərində elektrik enerjisi təchizatında növbəli olaraq qısamüddətli fasilələr yaranacaq. AZƏRTAC xəbər verir ki, bu barədə "Azərişıq" ASC mətbuat xidmətinin rəhbəri Tanrıverdi Mustafayev deyib. Onun sözlərinə görə, buna səbəb aparılan yenidənqurma işləridir. Yenidənqurma işləri ilə əlaqədar ölkənin bəzi regionlarında elektrik enerjisinin verilməsində növbəli fasilələr yaranacaq. Bayram günlərində bütün mənzillərdə dayanıqlı və keyfiyyətli enerji təchizatının tam təmin olunması üçün işlərin Yeni ilə qədər yekunlaşdırılması planlaşdırılıb.

# Ulu Öndər Heydər Əliyevin həyatı xalqa, Vətənə, dövlətə xidmət nümunəsidir

## *Bakı Slavyan Universitetinin rektoru, Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü, YAP Qadınlar Şurasının sədri, filologiya elmləri doktoru, professor Nurlana Əliyevanın yap.org.az-a müsahibəsi*

***- Nurlana xanım, 12 dekabr Ulu Öndər Heydər Əliyevin anım günüdür. Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin xalqımız qarşısında misilsiz xidmətləri ilə seçilən çoxillik fəaliyyətindəki məqamları bizimlə bölüşməyinizi xahiş edirik.***

- Azərbaycanın qədim və mübariz bir tarixi vardır. Bu tarixdə fatehlər, şahlar, sərkərdə və döyüşçülər, müdrik dövlət xadimləri çox olmuşdur. Onların arasında Ulu Öndər Heydər Əliyev ayrıca və misilsiz bir mövqe tutur. Həmin mövqe tarixin Onun öhdəsinə qoyduğu missiyanın, tarixi vəzifələrin qeyri-adi mürəkkəbliyi ilə bağlı idi. Tale Ona Azərbaycanın müstəqilliyini bərpa etmək, sonra isə onu dönməz etmək vəzifəsini tapşırmışdı. Bu, ağlagəlməz dərəcədə çətin missiya idi. Çünki XX əsrin sonlarında dünya böyük dövlətlər arasında bölünmüşdü. Müstəqil dövlətlərin yaranması şansı sıfıra bərabər sayılırdı. Dünyada baş verən dövlət çevrilişləri belə, böyük dövlətlərin ssenariləri əsasında baş verirdi. Azərbaycan xalqlar həbsxanası olan SSRİ-də kommunist diktakturası şəraitində yaşayırdı. Amma tarix insan ağlından qat-qat mürəkkəbdir. Tarix Sovet dövlətini gözlənilmədən, heç kəsin ağlına sığmayan bir məntiqlə dağıtdı. Tarix öz ədalətli hökmünü verdi: Azərbaycanı çalxalayan siyasi təlatümlər və xalqın yekdil istəyi Heydər Əliyevi müstəqil respublikanın rəhbərliyinə gətirdi. Yeni Azərbaycan Partiyasını yaradan müdrik siyasətçi, təcrübəli dövlət xadimi bu partiya vasitəsilə Azərbaycanı düşdüyü faciəli vəziyyətdən xilas etməyin həqiqi yollarını, milli birliyə və siyasi sabitliyə nail olmaq haqqında fikir və düşüncələrini xalqa çatdırmaq imkanı əldə etdi. Heydər Əliyevin ən böyük arzusu müstəqil, güclü Azərbaycan dövləti yaratmaq, bu dövləti dünyanın siyasi xəritəsinə əbədi olaraq həkk etmək, öz millətini dünya arenasına yeni keyfiyyətdə, yeni səviyyədə çıxarmaq idi. Heydər Əliyev böyük şəxsiyyət, siyasətin ən yüksək zirvəsini fəth etmiş və beynəlxalq miqyasda böyük nüfuza malik qüdrətli dövlət xadimi idi. O, bütün həyatını, sağlamlığını milli dövlətçiliyə, müstəqilliyin və qanunçuluğun möhkəmlənməsinə, ordu quruculuğuna sərf etdi, ölkədə hüquqi, demokratik, dünyəvi cəmiyyətin formalaşmasını təmin etdi. Onun siyasəti nəticəsində əldə olunan misilsiz nailiyyətlər göz önündədir. Bu nailiyyətlər paytaxtımız Bakı şəhərinin daim yeniləşən görkəmində şəhər və rayonlarımızın sürətlə müasirləşməsində, iqtisadiyyat, elm, təhsil, mədəniyyət və səhiyyə sahələrində, eləcə də ictimai-siyasi həyatımızda öz əksini tapmışdır. Heydər Əliyev öz xalqının taleyində, mənəvi, siyasi və ictimai həyatında böyük xidmətləri olan dahi bir şəxsiyyətdir. Böyük rəhbərin hakimiyyətdə olduğu bütün dövrlərdə Azərbaycan iqtisadiyyatı, elmi, təhsili, səhiyyə və mədəniyyəti sürətli inkişaf yoluna çıxmışdır. Bu illərdə milli-mənəvi dəyərlərimizin qurulması, vətəndaşların sosial həyat tərzinin yaxşılaşdırılması, demokratiyanın inkişafı, dünya azərbaycanlılarının sarsılmaz bir qüvvə kimi təşkilatlanması, qadınlarımızın və gənclərimizin dövlətçiliyimizin tərəqqi prosesinə cəlb edilməsi Heydər Əliyevin böyük xidmətləri arasında xüsusi yer tutur. Azərbaycanın dövlət müstəqilliyinin əbədiliyi, sarsılmazlığı və dönməzliyi Heydər Əliyevin ən böyük tarixi xidmətlərindən biridir. Bu isə öz növbəsində Ulu Öndər Heydər Əliyevin yalnız Azərbaycan tarixində deyil, həm də böyük türk dünyasında əbədiyaşarlığını şərtləndirən başlıca amildir.



***- Ümummilli Liderin birinci dəfə Azərbaycana rəhbərliyi dövründə və müstəqillik illərində elm və təhsil sahəsində qazanılan nailiyyətləri necə dəyərləndirirsiniz?***

- "Təhsil millətin gələcəyi, müstəqil dövlətin təməlidir!", - deyən Ulu Öndər Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə elm və təhsilin inkişafına ali diqqət və qayğı yetirmiş, bu sahənin hərtərəfli tərəqqisi üçün dövlət səviyyəsində bütün əməli tədbirləri həyata keçirmişdir. "Təhsil millətin gələcəyi, müstəqil dövlətin təməlidir!", - deyən Heydər Əliyev üçün xalqın sabahı həmişə milli təhsil sistemi ilə bağlı olmuşdur. Bu əsas prinsip Ulu Öndərin Azərbaycana rəhbərlik etməyə başladığı ötən əsrin 70-ci illərindən özünü büruzə vermişdir. Heydər Əliyev Azərbaycan təhsilinin keyfiyyətini yüksəltmək, onun tədris və maddi-texniki bazasını gücləndirmək, təhsil işçilərinin cəmiyyətdəki nüfuzunu yüksəltmək üçün səmərəli fəaliyyət göstərirdi. Mən xalqımızın böyük oğlu Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi 1969-1982-ci illərdə ölkə həyatının ümumi yüksəlişi fonunda elm və təhsilə göstərdiyi böyük diqqət və qayğıya xüsusi nəzər salmaq istəyirəm. Ulu Öndər Azərbaycan təhsili haqqında danışarkən onun inkişafyönümlü xarakterini, təhsilin cəmiyyət və dövlətin inkişafına xidmət edən ən zəruri sahə olduğunu xüsusi vurğulayırdı. O, elmlərə əzmlə yiyələnməyi, daha çox bilik və bacarıqlar əldə etməyi və əsas diqqəti nurlu əməllərə yönəltməyi cəmiyyətin sarsılmaz dayaqlar üzərində qurulmasının ən vacib şərtlərindən biri hesab edirdi. Mübaliğəsiz deyə bilərik ki, Ümummilli Liderimizin təhsillə bağlı nitq və çıxışlarındakı hər hansı bir istiqamət konkret mahiyyət daşıyaraq zaman ötdükcə məzmun etibarilə daha zəngin və konseptual xarakterli müddəalara çevrilir. Onun müdrik və uzaqgörən təhsil siyasəti nəticəsində XX əsrin 70-80-ci illəri sözün əsl mənasında Azərbaycan təhsilinin intibah dövrü oldu. Həmin dövrdə Azərbaycanın şəhər, qəsəbə və kəndlərində 275 yeni məktəbəqədər tərbiyə müəssisəsi, 700-ə qədər yeni məktəb binası tikilib istifadəyə verilmişdi. Ümummilli Lider Heydər Əliyevin şəxsi təşəbbüsü və təşkilatçılığı ilə Azərbaycanda 1970-1982-ci illərdə 5 yeni ali təhsil müəssisəsi yaradılmış, ali məktəb tələbələrinin sayı isə 70 mindən 100 min nəfərə çatdırılmışdı.

Ümummilli Lider Heydər Əliyev respublikamızın siyasi rəhbərliyinə ilk gəlişindən dərhal sonra, 70-ci illərin əvvəllərindən başlayaraq istedadlı və perspektivli tələbələrin, gənc tədqiqatçıların öz elmi səviyyə və dərəcələrini artırmaq üçün kütləvi surətdə Moskva, Leninqrad (indiki Sankt-Peterburq), Kiyev, Novosibirsk və Minskin, habelə SSRİ-nin digər nüfuzlu universitet və elmi-tədqiqat institutlarına ezam olunmaları siyasətini həyata keçirirdi. Hər il 1000-1400 nəfər azərbaycanlı gənc respublikamızdan kənarda ali təhsil almağa göndərilirdi. Məhz Ulu Öndərin şəxsi təşəbbüsü ilə 1970-1980-ci illərdə keçmiş SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox nüfuzlu ali məktəblərində respublikamızın xalq təsərrüfatı, elm, təhsil və mədəniyyətinin 80-dən artıq sahəsini əhatə edən və zəruri ehtiyac duyulan 250-dən çox ixtisas üzrə 15 mindən artıq azərbaycanlı gənc ali təhsil almışdır. Hər il bu məqsədlə göndərilən gəncləri qəbul edən Ulu Öndər qüdrətli, qayğıkeş və tələbkar bir rəhbər kimi onları ürəkləndirir, böyük məsuliyyətlərini-istedadları, mədəniyyətləri, davranışları ilə qürbətdə xalqımızı təmsil etməyin məsuliyyətini anladır və xalqımızın, millətimizin gələcəyi naminə bütün bacarıqlarını sərf edərək İttifaqın aparıcı alimlərindən müasir elmin sirlərini dərindən öyrənməyi tövsiyə edirdi. Mən Ulu Öndərin 1975-ci il avqust ayının 28-də keçmiş Sovet İttifaqının nüfuzlu ali təhsil müəssisələrinə təhsil almağa göndərilən tələbələrlə görüşündə söylədiyi aşağıdakı müdrik fikirləri xatırlatmaq istəyirəm: "Siz bu əsrin axırıncı onilliklərində və gələn əsrin əvvəllərində işləyəcəksiniz. O zaman elmi-texniki tərəqqi üfüqlərinin necə cazibədar olacağını bu gün təsəvvür etmək mümkündür. Sabahkı gün isə qarşınıza yeni, yüksək tələblər qoyacaqdır. Əgər mütəxəssis, həqiqətən, yaradıcı şəxsiyyətdirsə, o, sadəcə olaraq zamanla ayaqlaşmalı deyil, həmişə zamanı bir qədər qabaqlamalıdır. Bu isə o deməkdir ki, daim öyrənmək lazımdır, buna görə də bilik, bacarıq və vərdişin bünövrəsi möhkəm olmalıdır". Qətiyyətlə deyə bilərik ki, Ulu Öndərimizin həmin uzaqgörən fikirləri qloballaşan dünyamızın müasir tələbləri və yanaşmaları ilə tam həmahəng səslənir.

Ulu Öndər Heydər Əliyev Azərbaycana birinci rəhbərliyi dövründə milli hərbi kadrların yetişdirilməsinə də xüsusi diqqət yetirirdi. Bunu faktlar da birmənalı şəkildə təsdiqləyir: təkcə 1982-ci ildə keçmiş Sovetlər Birliyinin ali hərbi məktəblərinə 550 nəfər azərbaycanlı gənc qəbul edilmişdi. Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yaradılması da Ulu Öndər Heydər Əliyevin adı və vətənpərvər fəaliyyəti ilə bağlıdır.

Ulu Öndər Heydər Əliyev ikinci dəfə hakimiyyətə gəldikdən sonra həmişə olduğu kimi, yenə elmə, təhsilə böyük qayğı və diqqət göstərmişdir. Ümumiyyətlə, müdrik rəhbərimizin 30 ildən artıq davam edən ictimai-siyasi fəaliyyətində elmə, təhsilə qayğı və diqqət daim mühüm yer tutmuşdur. Belə ki, Ulu Öndər yenidən ölkə rəhbərliyinə qayıtdıqdan sonra ilk görüşlərindən birini 1993-cü il sentyabrın 21-də Azərbaycan Milli Elmlər Akademiyasında (AMEA) keçirmişdi. 1997-ci il yanvarın 31-də Ulu Öndər Heydər Əliyev AMEA-nın rəhbərliyini və bir qrup aparıcı alimi qəbul etmiş, onlarla elm sahəsində islahatların aparılmasının vacibliyi barədə ətraflı söhbət etmişdir. Bütün bunlar isə təbii ki, Ümummilli Lider Heydər Əliyevin alimlərimizə bəslədiyi böyük hörmətin, hədsiz qayğı və diqqətin nümunəsi kimi izah edilir.

Həmin dövrdə təhsil müəssisələrinin normal fəaliyyət göstərməsi və təhsilin milli tərəqqimizin əsas amilinə çevrilməsi üçün ölkəmizdə geniş islahatlar proqramı işlənib hazırlandı. Ulu Öndər Heydər Əliyev 1998-ci ilin martında "Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyası yaradılması haqqında" Sərəncam imzaladı. Hərtərəfli müzakirələrdən sonra 1999-cu ilin iyununda "Azərbaycan Respublikasında təhsil sahəsində İslahat Proqramı" təkmilləşdirilmiş variantda təsdiq edildi. Beləliklə, bu gün biz fəxrlə deyə bilərik ki, Azərbaycanın milli təhsil quruculuğu Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi prinsiplər əsasında - təhsil sistemində hər bir yeniləşmənin təkamül yolu ilə həyata keçirilməsi, qabaqcıl dünya təcrübəsinin öyrənilməsinin vacibliyi, təhsildə XX əsrdə qazanılmış ənənələrdən istifadə olunması, milli və ümumbəşəri dəyərlərə əsaslanan beynəxalq standartlara uyğun, xalqın sabahkı tərəqqisinin bütün şərtləri nəzərə alınaraq təmin edilmişdir.

***- Nurlana xanım, Azərbaycanın ən qabaqcıl ali təhsil müəssisələrindən birinin rəhbəri kimi gənc nəsil tərəfindən xalqımızın və dövlətimizin xilaskarı Ümummilli Lider***

# Ulu Öndər Heydər Əliyevin həyatı xalqa, Vətənə, dövlətə xidmət nümunəsidir

*Bakı Slavyan Universitetinin rektoru, Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü, YAP Qadınlar Şurasının sədri, filologiya elmləri doktoru, professor Nurlana Əliyevanın yap.org.az-a müsahibəsi*

***Heydər Əliyevin irsinin dərindən öyrənilməsi, Onun ideyalarının həyata keçirilməsi istiqamətində hansı addımlar atırsınız?***

- Bakı Slavyan Universiteti (BSU) Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən 2000-ci ildə M.F.Axundov adına Azərbaycan Pedaqoji Rus Dili və Ədəbiyyatı İnstitutunun bazasında yaradılıb. BSU slavyan ölkələri ilə sıx əməkdaşlıq şəraitində fəaliyyət göstərir. Son illər BSU-da təhsilin keyfiyyətinin yüksəldilməsi, maddi-texniki bazanın gücləndirilməsi və beynəlxalq əlaqələrin genişləndirilməsi istiqamətində mühüm addımlar atılır. Hazırda BSU-nun 134 xarici universitetlə əməkdaşlıq haqqında müqaviləsi var. Bu müqavilələr əsasında BSU xarici universitetlərlə müəllim-tələbə mübadiləsi, birgə elmi konfranslar, simpoziumlar və digər tədbirlər həyata keçirir. Bununla yanaşı, BSU Avropa ölkələrinin bir çox tanınmış və nüfuzlu universitetləri ilə əməkdaşlıq edir. BSU-da təhsil sahəsində qabaqcıl beynəlxalq təcrübənin, dünyanın inkişaf etmiş ölkələrinin mütərəqqi təhsil ənənələrinin öyrənilməsinə və tətbiq edilməsinə böyük əhəmiyyət verilir.

Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyev ölkəmizin zəngin təbii resurslarının insan kapitalına çevrilməsini elm və təhsil ictimaiyyəti qarşısında əsas vəzifələrdən biri kimi qoyub. Azərbaycan Respublikasının Birinci-vitse prezidenti Mehriban xanım Əliyeva təhsil sahəsinin müasir tələblərə uyğun inkişaf etməsi və yeni beynəlxalq çağırışlara cavab verməsi istiqamətində mühüm layihələr reallaşdırır. BSU-da müasir Azərbaycanın qurucusu, Ümummilli Liderimiz Heydər Əliyevin zəngin dövlətçilik irsinin dərindən öyrənilməsi, Onun ictimai-siyasi fəaliyyətinin gənc nəslə yüksək səviyyədə çatdırılması üçün məqsədyönlü fəaliyyət planı gerçəkləşdirilir. BSU-da təhsil alan tələbə-gənclərin azərbaycançılıq ideologiyasına, milli-mənəvi dəyərlərimizə, dövlətə və dövlətçiliyə sədaqət ruhunda tərbiyə edilmələrinə xüsusi diqqət yetirilir. BSU-nun Tədbirlər Planına müvafiq olaraq Ulu Öndərin həyat və fəaliyyətinə həsr edilmiş müxtəlif tədbirlər, o cümlədən, elmi konfranslar, simpoziumlar, seminarlar, dəyirmi masalar və digər tədbirlər keçirilir. BSU-nun tələbələrinin Cocuq Mərcanlı kəndində pedaqoji təcrübə keçmələrini, professor-müəllim heyətinin və tələbə-gənclərin birlikdə Ulu Öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə Cocuq Mərcanlı kəndində keçirdiyi tədbiri xüsusi vurğulamaq istəyirəm.

Bu gün BSU ölkəmizdə elm və təhsilin inkişafına dəyərli töhfələr verir. BSU slavyan ölkələrinin mədəniyyət və təhsil sistemi ilə, bu ölkələrin universitetləri ilə yaxından əməkdaşlıq edir, müştərək beynəlxalq konfranslar, səfir mühazirələri, diplomatik əlaqələrin öyrənilməsinə, möhkəmlənməsinə təsir göstərən mübadilə, mühazirə, dəyirmi masalar, bayram tədbirləri keçirir. Yeri gəlmişkən, qeyd edim ki, bu il Ulu Öndər Heydər Əliyevin Azərbaycanda siyasi fəaliyyətə başlamasının 50 ili tamam oldu. Bu böyük tarixi-siyasi hadisə münasibətilə BSU-da "50 il qüdrətli Azərbaycan naminə" adlı geniş tədbir keçirildi. Ölkəmizin ictimai-siyasi həyatında geniş əks-səda doğuran bu tədbirdə YAP-ın və Təhsil Nazirliyinin məsul şəxsləri, millət vəkilləri, tanınmış və nüfuzlu ictimai-siyasi xadimlər, ölkəmizdə fəaliyyət göstərən xarici ölkə səfirliklərinin nümayəndələri, media orqanlarının rəhbərləri, təhsil ekspertləri, ziyalılar iştirak etdilər.

***- Azərbaycan Ulu Öndər Heydər Əliyevin ideyaları əsasında inkişaf edir. Ümummilli Liderin siyasəti Prezident İlham Əliyev tərəfindən müasir dövrün tələblərinə və çağırışlarına müvafiq surətdə uğurla davam etdirilir. Hazırda Azərbaycanda təhsil sahəsinin inkişafı istiqamətində görülən işlər və həyata keçirilən islahatların əhəmiyyəti ilə bağlı nə deyə bilərsiniz?***

- Xüsusi olaraq qeyd etmək istəyirəm ki, Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin Ulu Öndər Heydər Əliyevin müdrik siyasi kursunu, mütərəqqi dövlətçilik konsepsiyasını uğurla davam etdirməsi nəticəsində ölkəmiz öz inkişafında keyfiyyətcə yeni mərhələyə daxil olmuşdur. Bu baxımdan, son vaxtlar aparılan struktur və kadr islahatları diqqətəlayiqdir və xalqımız tərəfindən yüksək qiymətləndirilir. Aparılan islahatlar keyfiyyətə əsaslanan inkişafın təmin olunmasına, insan kapitalının keyfiyyət göstəricilərinin yüksəlməsinə, dövlətin və dövlətçiliyin möhkəmlənməsinə xidmət edir. Respublikamızda dövlət idarəçiliyi sistemi daim təkmilləşir və daha çevik idarəetmə formasının yaranması üçün mühüm addımlar atılır. Aparılan struktur və kadr islahatları gənclərə yol açır, onların dövlət idarəçiliyi sisteminə geniş cəlb edilmələrinə əlverişli şərait yaradır. Eyni zamanda Azərbaycanın beynəlxalq siyasi nüfuzu yüksəlir. Möhtərəm İlham Əliyevin daxili və xarici siyasətinin bugünkü reallıqları, ölkədə aparılan sosial-iqtisadi siyasətin bəhrələri, dövlət siyasətinin mərkəzində duran insan amili, hər bir vətəndaşın həyatının gözəlləşməsi üçün dövlət tərəfindən atılan addımlar və Azərbaycanın heç bir dövrdə olmayan bugünkü tərəqqisi, inkişafı müxtəlif tədbirlərdə gənclər tərəfindən minnətdarlıqla vurğulanır. Tələbə-gənclər bu gün Azərbaycanda keçirilən mühüm tədbirlərin mənasını anlayır və bu tədbirlərin Azərbaycanın nüfuzuna, yeni öz xoşbəxt gələcəklərinə dayaq olduğunu dərk edirlər.

Bu yaxınlarda ölkəmiz daha bir diplomatik uğur qazanıb. Azərbaycanın 120 tamhüquqlu ölkəni, 17 müşahidəçi dövləti və 10 beynəlxalq təşkilatı özündə birləşdirən, Birləşmiş Millətlət Təşkilatının Baş Assambleyasından sonra dünya dövlətlərinin təmsil olunduqları ən böyük siyasi təsisat olan, bəşəri dəyərlərin təbliğinə xidmət göstərən və bütün ölkələrin müstəqilliyinə, ərazi bütövlüyünə sadiqlik nümayiş etdirən Qoşulmama Hərəkatına sədr seçilməsi böyük bir siyasi uğur, ölkəmizə göstərilən hörmətin, inamın və etibarın ədalətli təzahürüdür.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın elm və təhsil sahəsinə göstərdikləri miqyasıgörünməyən diqqət və qayğı nəticəsində ölkəmiz bu sahədə böyük nailiyyətlərə imza atıb. Dünya İqtisadi Forumunun "Qlobal Rəqabətlilik İndeksi-2019" hesabatında Azərbaycan təhsilin kəmiyyət və keyfiyyət parametrlərinə əsaslanan "Bacarıqlar" indeksi üzrə 6 pillə irəliləyərək 48-ci, innovasiya bacarığı üzrə 3 pillə irəliləyərək 68-ci, işçilərin peşəkar inkişafı kateqoriyası üzrə 22 pillə irəliləyərək 34-cü, peşə təhsilinin keyfiyyət göstəricisinə görə 6 pillə irəliləyərək 43-cü, bacarıqlı işçi tapmaq asanlığı üzrə 2 pillə irəliləyərək 29-cu yeri tutub. Ölkəmiz tədrisdə tənqidi düşüncə göstəricisi üzrə 7 pillə irəliləyib və 20-ci yerdə qərarlaşıb. Bütün bu böyük uğurlar, göstəricilər Azərbaycanda bütün təbəqələrdən olan insanları ruhlandırır, xoşbəxt gələcək haqqında əminlik yaradır.

## "İnstyle" jurnalı Yeni il bayramını maraqlı keçirmək üçün Azərbaycana getməyi təklif edir



Rusiyada çıxan "İnstyle" jurnalı Yeni il tətilini maraqlı keçirmək üçün Azərbaycana getməyi təklif edir. AZƏRTAC xəbər verir ki, jurnal bu il qış tətili üçün yeni və maraqlı turizm istiqamətləri seçib. Onlardan biri də Azərbaycandır.

Məqalədə qeyd olunur ki, Azərbaycan paytaxtı Şərqlə Qərbin vəhdətini əks etdirir. Yeni il bayramlarında möhtəşəm memarlıq abidələri illüminasiyaya qərq olur. Jurnal oxucularına İçərişəhərdə qədim tarixi abidələrə baxmağı, rəssamların emalatxanalarında olmağı, Fəvvarələr bağında açılan yarmarkaya, Bakının mədəni həyatı ilə tanış olmaq üçün Heydər Əliyev Mərkəzinə getməyi təklif edir. Jurnal turistlərə ləziz Azərbaycan mətbəxindən dadmağı da tövsiyə edir.

## İlin sonunadək "Asan Xidmət" mərkəzlərinin sayı 19-a çatacaq




"Şamaxıda Prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verilən "Asan Həyat" kompleksi sayca 16-cı "Asan Xidmət"dir". Dekabr ayının sonuna qədər daha 3 mərkəzin istifadə verilməsi gözlənilir ki, bununla da mərkəzlərin sayı 19-a çatacaq". SİA-nın xəbərinə görə, bunu Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev müsahibəsində deyib.

O bildirib ki, 6 il ərzində 19 mərkəzin fəaliyyətə başlaması cənab Prezidentin birbaşa göstərişinin nəticəsidir: "Çünki qarşımıza qoyulan vəzifə qısa müddətdə Azərbaycanın regionlarında "Asan Xidmət" mərkəzlərinin fəaliyyətdə olmasını, eləcə də regionda yaşayan əhalinin xidmətlərdən, bir pəncərə prinsipindən operativ, şəffaf qaydada yararlanmasını tətbiq etməkdən ibarət idi".

## BP-nin baş icraçı direktoru Azərbaycana gələcək

BP şirkətinin baş icraçı direktoru Robert Dadli Azərbaycana gələcək. AZƏRTAC xəbər verir ki, R.Dadlinin Azərbaycan hökumətinin və tərəfdaş şirkətlərin nümayəndələri ilə görüşləri nəzərdə tutulur. Qeyd edək ki, şirkətdə 40 illik karyerası olan və 9 il BP-nin baş icraçı direktoru vəzifəsində çalışan 64 yaşlı R.Dadli qrup rəhbəri postundan və idarə heyətindən istefa verib. R.Dadli gələn il fevralın 4-də şirkətlə bağlı 2019-cu ilin nəticələrini elan etdikdən sonra martın 31-də təqaüdə çıxacaq. Onu bu postda hazırda şirkətin hasilat üzrə icraçı direktoru olan Bernard Luni əvəz edəcək. B.Luni isə fevralın 5-də idarə heyətinə daxil olacaq və BP şirkətinin baş icraçı direktoru vəzifəsini icra edəcək. O, həmin tarixə qədər hazırkı vəzifəsində qalacaq.

# Yeni Azərbaycan Partiyasının “Xalq üçün” devizi ilə seçki təbliğatı uğurla keçirilir

## AGDAŞ

23 dekabr bələdiyyə seçkiləri ilə əlaqədar olaraq, Ağdaş rayonunda təbliğat-təşviqat kampaniyası uğurla davam edir. Seçicilərlə növbəti görüşlər rayonun Ləki qəsəbəsi və Hapıtlı kəndində keçirilib. Görüşləri Yeni Azərbaycan Partiyasının Bələdiyyə seçkilərində səlahiyyətli nümayəndəsi, Yeni Azərbaycan Partiyası Ağdaş rayon təşkilatının aparat rəhbəri İsa Eminov açaraq bələdiyyə seçkilərindən və bu seçkilərlə əlaqədar indiyə qədər görülmüş işlərdən danışıb. Dövlətimizin yerli özünüidarəetmə orqanı olan bələdiyyələrə olan yüksək diqqət və qayğısından, eləcə də, gələcəkdə bələdiyyələrin qarşısında duran vəzifələrdən bəhs edən İ.Eminov son illərdə ölkəmizdə, eləcə də, Ağdaşda gedən sürətli tikinti-quruculuq işlərinin, həyata keçirilən irimiqyaslı layihələrin, məhz Yeni Azəbaycan Partiyasının və onun Sədri, ölkə Prezidenti İlham Əliyevin adıyla bağlı olduğunu və bütün bunların hər bir vətəndaşın gözü qabağında baş verdiyini görüş iştirakçılarının diqqətinə çatdırıb.






Görüşdə YAP Seçki Qərargahı Ağdaş rayon şöbəsinin üzvü Müzəffər Abdullayev çıxışında bildirib ki, 23 dekabr 2019-cu il tarixdə keçiriləcək bələdiyyə seçkilərində YAP tərəfindən ən layiqli namizədlər irəli sürülüb. Ölkə Prezidenti İlham Əliyevin daim diqqət və qayğısını öz üzərlərində hiss edən ağdaşlılar, əvvəlki seçkilərdə olduğu kimi, bələdiyyə seçkilərində də böyük fəallıq və coşqu nümayiş etdirəcək, bu siyasi kampaniyanın yüksək mütəşəkkilliklə keçirilməsinə nail olacaqlar. Hər zaman yüksək seçki mədəniyyəti nümayiş etdirən Yeni Azərbaycan Partiyası bələdiyyə seçkilərindən də qələbə ilə çıxacaqdır.

Görüşlərdə seçicilər adından çıxış edən Ləki qəsəbə sakini Aidə Yaqubova və Aşağı Ləki kənd sakini Vacib Həsənov Ağdaş rayonunda rayon sakinlərinin Yeni Azərbaycan Partiyasına, partiyanın Sədri, ölkə Prezidenti İlham Əliyevə inamlarının çox güclü olduğunu bildiriblər. Ağdaşlılar bu inamı keçirilən bütün seçkilərdə nümayiş etdiriblər. Bütün seçki proseslərində hər zaman yüksək seçici fəallığı nümayiş olunduğunu deyən çıxışçılar bəyan ediblər ki, bələdiyyə seçkisində də fəal iştirak edəcək, ölkəmizin inkişafının davamlı olması üçün YAP-ın namizədlərinə səs verəcəklər.

## ZAQATALA

Yeni Azərbaycan Partiyasının Zaqatala rayon təşkilati 23 dekabrda keçiriləcək bələdiyyə seçkiləri ilə əlaqədar təbliğat-təşviqat kampaniyası çərçivəsində rayonun Aşağı Çardaxlar, Göyəm, Sumaylı kənd secicilәri ilə növbəti görüş keçirib.

Görüşü giriş sözü ilə açan YAP Zaqatala təşkilatının sədri Habil Qurbanov bildirib ki, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş və ölkəmizin yüksək inkişafına



hesablanmış uğurlu sosial-iqtisadi siyasət bu gün, məhz Yeni Azərbaycan Partiyasının Sədri, Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Dövlət başçısının müəyyən etdiyi islahatlar kursunun həm miqyası, həm də keyfiyyət baxımından davamlı olması, iqtisadiyyatın hər bir strukturunda müşayiət edilməklə yanaşı, ən yeni idarəetmə texnologiyalarının tətbiqi ilə çox böyük nailiyyətlərin əldə olunmasını şərtləndirib. Rayon təşkilatının sədri xalqın sosial-ictimai həyatında bələdiyyələrin rolundan danışıb. O, 23 dekabr 2019-cu ildə keçiriləcək bələdiyyə seçkilərində Yeni Azərbaycan Partiyasının İsmayıllı rayon təşkilatının qarşısında duran vəzifələri açıqlayıb. Yerli özünüidarəetmə orqanı olan bələdiyyələrin keçdiyi inkişaf yolu, yarandığı 20 il ərzində, ölkənin sosial-iqtisadi və ictimai-mədəni həyatındakı rolu barədə ətraflı danışıb. Dekabrın 23-də keçiriləcək bələdiyyə seçkilərində YAP rayon təşkilatının da layiqli namizədlərlə iştirak edəcəyi bildirilib.

Görüşdə rayon seçki qərargahının üzvləri Namidə Süleymanova, Famil Rəhimov və Gülnigar Məmmədova çıxış edərək, seçiciləri bələdiyyə seçkilərində fəal iştirak etməyə, ölkəmizin hərtərəfli inkişafının davamlı olması naminə YAP-ın namizədlərinə səs verməyə çağırıblar.

Görüşdə çıxış edən seçicilər bildiriblər ki, Yeni Azərbaycan Partiyası yarandığı vaxtdan ölkəmizdə keçirilən bütün seçkilərdə qələbə qazanıb. 23 dekabrda da YAP tərəfindən irəli sürülmüş namizədlər seçicilər tərəfindən dəstəklənəcək və onlara səs verəcəklər.

## SABUNÇU

Yeni Azərbaycan Partiyasının Sabunçu rayon təşkilatında bələdiyyə üzvlüyünə YAP tərəfindən irəli sürülmüş namizədlərlə görüş keçirilib.

Tədbiri giriş sözü ilə açan YAP Sabunçu rayon təşkilatının sədri Mehriban Abasquliyeva rayon təşkilatı tərəfindən görülən işlər barədə məlumat verib, qarşıdan gələn bələdiyyə seçkilərinin əhəmiyyətindən danışıb, eyni zamanda, ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasətin nəticəsi olaraq, qadınların idarəetmə orqanlarında və seçki proseslərindəki iştirakının durmadan artmaqda olduğunu qeyd edib.






M.Abasquliyeva çıxışında Azərbaycanda, ötən dövr ərzində, bələdiyyə institutunun formalaşdığını və bu seçki prosesində də qadınların rolunun əvəzsiz olduğunu qeyd edib. Rayon təşkilatının sədri qarşıdan gələn bələdiyyə seçkilərində qadın namizədlərin say çoxluğunun iş prosesinə müsbət təsir göstərəcəyinə əminliyini bildirib və bütün namizədlərə uğurlar arzulayıb.

YAP Sabunçu rayon təşkilatının sədr müavini Bəxtiyar Qasımov, Sosial İqtisad Kolleci ərazi ilk partiya təşkilatının sədri Natiq Musayev çıxış edərək, respublikamızda dövlət-qadın siyasəti haqqında danışaraq, Ulu Öndər Heydər Əliyevin bu istiqamətdə əsasını qoyduğu ənənələrin ölkə Prezidenti İlham Əliyev tərəfindən layiqincə davam etdirildiyini, bunun nəticəsi olaraq, dekabrın 23-də keçiriləcək bələdiyyə seçkilərində də qadın namizədlərin sayının kifayət qədər çox olduğunu bildirərək, hamılıqla seçkilərdə fəal olmağa çağırıblar.

Görüşdə bələdiyyə üzvlüyünə namizədlər də Azərbaycanın və regionun ən güclü siyasi partiyası olan YAP-ın yarandığı gündən iştirak etdiyi bütün seçkilərdə qələbə qazandığını vurğulayıblar və xalqımızın bu seçkilərdə də partiyamızın namizədlərini dəstəkləyəcəyinə əmin olduqlarını qeyd ediblər.

## XAÇMAZ

YAP Xaçmaz rayon təşkilatı 23 dekabr 2019-cu il tarixdə keçiriləcək bələdiyyə seçkiləri ilə əlaqədar təşviqat kampaniyası çərçivəsində Yergüc, Hacıəlibəy kənd seçiciləri ilə görüş keçirildi. Görüşü YAP Xaçmaz rayon təşkilatının sədr müavini, qərargah üzvü Abasyar Heydərov açaraq, Bələdiyyələr və Bələdiyyə seçkiləri haqqında geniş məlumat verdi. Ölkəmizdə həyata keçirilən uğurlu siyasətin nəticəsi olaraq, ölkəmizin bugünkü inkişafı və gələcək hədəfləri haqqında seçiciləri məlumatlandırdı.





Tədbirdə qərargah üzvü Fazil Rəhmətov, Süraye Əmirova, seçicilərdən Məkan Ağayev, Abdulla Şükürov və başqaları çıxış edərək, Bələdiyyə seçkilərində daha fəal iştirak edəcəklərini bildirməklə, partiyanın qələbəsini təmin etməyə çalışacaqlarını bildirdilər.

Ardı Səh. 11

# Yeni Azərbaycan Partiyasının “Xalq üçün” devizi ilə seçki təbliğatı uğurla keçirilir

Əvvəli Səh. 10

## MASALLI

Dekabrın 23-də keçiriləcək bələdiyyə seçkiləri ilə bağlı YAP Seçki Qərargahının Masallı rayon şöbəsi seçicilərlə növbəti görüşü rayon təşkilatının inzibati binasında keçirilib. Görüşü YAP Masallı rayon təşkilatının sədri Seyfəddin






Əliyev açaraq bildirib ki, mahiyyət etibarilə 2019-cu il Azərbaycanda hərtərəfli islahatlar ili olub: “YAP-ın müasir Azərbaycan dövlətinin qurulmasında, xalqın rifahının ildən-ilə yüksəlməsində və ümummilli inkişafımızda əvəzolunmaz xidmətləri olub. YAP ötən dövr ərzində sübut edib ki, partiyamız ümumxalq dəstəyi və etimadı qazanan qələbələr partiyasıdır. Əminik ki, “Xalq üçün” devizi ilə getdiyimiz bu bələdiyyə seçkilərində də xalqımız YAP namizədlərini dəstəkləyəcək və partiyamız bu seçkilərdə də növbəti möhtəşəm uğurunu qazanacaqdır”. S.Əliyev seçiciləri səsvermə günü seçki məntəqələrinə gəlməyə və fəal iştirak etməyə dəvət edib.

Görüşdə çıxış edən Əntiqə Tağıyeva, Nahid Rəhimov, Elmar Məcidli və başqaları ölkəmizdə gedən dinamik inkişaf və tərəqqi, vətəndaşa göstərilən diqqət və qayğı üçün ölkə başçısına minnətdar olduqlarını, bu siyasəti ürəkdən dəstəklədiklərini və seçkilərdə iştirak edərək, YAP-ın namizədlərinə səs verəcəklərini bildiriblər.

## DAŞKƏSƏN

23 dekabrda keçiriləcək bələdiyyə seçkiləri ilə əlaqədar YAP Daşkəsən rayon təşkilatı təbliğat-təşviqat kampaniyası



çərçivəsində rayonun Quşçu kəndində görüş keçirib. YAP Daşkəsən rayon təşkilatı gənclər birliyinin sədri Kənan Bayramov, rayon şöbəsinin seçki qərargahının üzvü Mübariz



Mürsəlov və başqaları çıxış edərək, bütün seçkilərdə olduğu kimi, bələdiyyə seçkilərində də fəallıq göstərəcəklərini bildiriblər.

## ASTARA

YAP Astara rayon təşkilatı bələdiyyə seçkiləri ilə bağlı təbliğat-təşviqat kampaniyası çərçivəsində növbəti görüş rayonun Şüvi kənd seçiciləri ilə olub. YAP-ın Astara rayon təşkilatının sədri Firudin Əhmədov çıxış edərək bildirib ki, ölkənin ictimai-siyasi həyatında aparıcı qüvvə olan Yeni Azərbaycan Partiyası, bütün seçkilərdə olduğu kimi bələdiyyə seçkilərinə də yüksək fəallıqla başlayıb. F.Əhmədov müasir müstəqil Azərbaycanın banisi, Ümummilli Lider






Heydər Əliyev tərəfindən yaradılmış Yeni Azərbaycan Partiyasının cəmiyyətin demokratikləşməsindəki müstəsna yeri və rolu, ölkəmizdə keçirilmiş bütün seçkilərdə qazandığı parlaq qələbələr, Prezident İlham Əliyevin rəhbərliyi ilə son 16 ildə ölkəmizin əldə etdiyi misilsiz siyasi, iqtisadi, sosial, mədəni nailiyyətlər, əhalinin sosial rifahının daha da yüksəldilməsi məqsədilə icra olunan sosial layihələr, ölkəmizdə yerli özünüidarəetmə strukturları olan bələdiyyə institutunun inkişafı və fəaliyyət mexanizmi üçün yaradılmış zəruri qanunvericilik bazası, xüsusilə, son dövrdə bələdiyyələrin maliyyə mənbələrində yaradılmış yeni imkanlar və bələdiyyələrlə bağlı görüləcək işlər haqqında seçicilərə ətraflı məlumat verib.

Sonda rayon təşkilatının sədri bütün seçiciləri 23 dekabr 2019-cu il tarixdə seçki məntəqələrinə dəvət edərək, Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verməyə çağırıb.

Görüşdə Şüvi kənd sakinləri Mail Muradov, Zikrulla Salayev, Manaf Baxşıyev, Elsever Əskərov çıxış edərək, seçiciləri 23 dekabr bələdiyyə seçkilərində fəal iştirak etməyə, ölkəmizin hərtərəfli inkişafının davamlı olması naminə Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verməyə çağırıblar.

## BALAKƏN

YAP Balakən rayon təşkilatı Seçki Qərargahının üzvləri rayonun mədəniyyət işçiləri ilə görüş keçirib. Görüşdə Balakən rayon seçki qərargahının üzvü Ömər Osmanov, qərar-



gah üzvləri Rəşid Musayev, Xəlifə Mirəliyev çıxış edərək, 23 dekabrda hər bir seçicinin seçki məntəqələrinə gəlməyi, daha layiq namizədlərə səs verməyi tövsiyə etmişlər. Qərargah üzvü Rəşid Musayev, mədəniyyət işçiləri adından rayon mədəniyyət şöbəsinin baş metodisti, YAP-Balakən rayon təşkilatı idarə heyətinin üzvü Şəfəq Hacıyeva çıxış edərək, seçiciləri 23 dekabrda hamılıqla seçki məntəqələrinə gələrək, YAP-ın namizədlərinə səs verməyə çağırıblar.

## AĞSTAFA

YAP Ağstafa rayon təşkilatı 23 dekabr 2019-cu il tarixdə keçiriləcək bələdiyyə seçkiləri ilə əlaqədar təbliğat-təşviqat kampaniyasının, qrafikə uyğun olaraq, növbəti görüş rayonun Köçəsgər, Eynallı və Həsənsu kəndlərində keçirilib.






Görüşdə çıxış edən YAP Ağstafa rayon təşkilatının sədri Ramiz Tatarov bildirib ki, bələdiyyə seçkiləri ölkəmizin siyasi həyatında mühüm yer tutur: “İnanırıq ki, seçicilərimizin hər biri 23 dekabr bələdiyyə seçkilərində fəal iştirak edəcək, ölkəmizin hərtərəfli inkişafının davamlı olması naminə Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verəcək”.

Tədbirdə, həmçinin, partiya fəalları çıxış edərək rayonda bələdiyyə seçkiləri ilə əlaqədar təbliğat-təşviqat işlərinin uğurla yekunlaşacağını və bu seçkilərdə də Yeni Azərbaycan Partiyasının namizədlərinin qalib gələcəyinə əmin olduqlarını bildiriblər.

Ardı Səh. 12

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

11 dekabr 2019-cu il

# Yeni Azərbaycan Partiyasının "Xalq üçün" devizi ilə seçki təbliğatı uğurla keçirilir

Əvvəli Səh. 11

## GORANBOY

Yeni Azərbaycan Partiyasının Mərkəzi Seçki Qərargahının Goranboy rayon şöbəsi tərəfindən bələdiyyə seçkiləri ilə əlaqədar təbliğat-təşviqat kampaniyası davam edir. Təbliğat kampaniyası rayonun Səmədabad, Kəhrizli, Muzdurlar, Qazanbulaq qəsəbə, Borsunlu və Nadirkənd kəndlərində yüksək səviyyədə keçirilib.





Rayonun ucqar kəndi olan Rus Borisi və Aşağı Ağcakənd qəsəbəsində YAP tərəfindən namizədlikləri irəli sürülmüş namizədlərlə seçicilərin görüşü çərçivəsində baş tutub. Rus Borisi icması ilə birgə keçirilən görüşdə YAP Goranboy rayon təşkilatının sədri bildirib ki, YAP tərəfindən Goranboy rayonu üzrə 47 bələdiyyəyə 403 namizəd irəli sürülüb və bu namizədlər 96 saylı Goranboy-Naftalan və 97 saylı Goranboy - Ağdam - Tərtər Dairə Seçki Komissiyaları tərəfindən qeydə alınıb.

Elçin İsmayılov çıxışında Yeni Azərbaycan Partiyasının Sədri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin apardığı siyasət nəticəsində, ölkəmizdə yerli özünüidarə orqanları olan bələdiyyələrin fəaliyyətinin genişlənməsi üçün müsbət şərait yarandığını bildirib. "2014-cü ildə bələdiyyə seçkilərindən indiki dövrə qədər bələdiyyələr bölgələrin abadlaşdırılmasında insanların problemlərinin həllində əhəmiyyətli işlər görmüşlər. YAP-ın bələdiyyələrdə təmsil olunan üzvləri onlara göstərilən etimadı yüksək qiymətləndirərək, xalqla daha yaxın olmaqla, sakinlərin istəklərinin nəzərə alınmasna, kəndlərimizin müasirləşməsinə öz töhfələrini verməyə çalışmışlar" deyə qeyd edən natiq vurğulayıb ki, bələdiyyələr ərazilərinin abadlaşdırılması işini qeyri-hökumət təşkilatları və beynəlxalq təşkilatlarla əməkdaşlığı davam etdirməlidir: "Yerli sakinlərlə sıx əlaqələrini daha da genişləndirməlidir. Ötən 5 il müddətində, bələdiyyələrimiz nəzərəçarpacaq dərəcədə işlər görərək, seçicilərinin hörmətini qazandıqlarını və böyük təcrübəyə malik olduqlarını nəzərə çatdıraraq, 23 dekabrda YAP tərəfindən irəli sürülmüş namizədlər seçicilər tərəfindən yekdil dəstək alacaqlar".

Görüşdə iştirak edən təbliğat qrupunun üzvü Füzuli Almuradov çıxışında bildirib ki, hər seçkidə olduğu kimi, bu seçkidə də YAP-ın namizədləri öz seçicilərinin dəstəyini alaraq, bu bələdiyyə seçkisini də qələbə ilə başa vuracaqlar.

Tədbirdə YAP tərəfindən Rus Borisi icması bələdiyyəsinin üzvlüyünə namizədliyi irəli sürülmüş Artyuk Veronika Vasilyevna və Korobkin Andrey Yuryeviç qeyd ediblər ki, Rus Borisi kəndində iki xalqın milləti mehriban və əmin-amanlıq içində və uzun illərdir birgə yaşayırlar. Azərbaycan tolerant ölkədir və bu reallıq mövcud dövrümüzdə də özünü bütün müsbət məqamları ilə sübuta yetirməkdədir. "Bura bizim doğma vətənimizdir" deyən kənd sakinləri, əlavə ediblər ki, onlar Azərbaycan vətəndaşı olmaqları ilə fəxr edirlər.

Qeyd olunub ki, YAP tərəfindən 5 nəfər bələdiyyəyə namizədlər verilib ki, bundan da 2 nəfəri rusdilli xalqın nümayəndələridir. "5 namizədin 4 nəfəri qadındır. Qadınlarımız həmişə dövlətimizin diqqət mərkəzində olub. Bizə göstərilən bu etimadı öz əməli fəaliyyətimizlə doğruldacağıq" deyə bildirilib.

Aşağı Ağcakənd qəsəbəsində keçirilən görüşdə çıxış edən YAP Seçki Qərargahı Goranboy rayon şöbəsinin üzvü Əzra Həşimova və Şahin Allahverdiyev bələdiyyələrin qarşısında duran vəzifələrdən danışaraq, qeyd ediblər ki, rayonda bu seçki də uğurla keçəcək, seçicilər Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülmüş namizədlərə səs verərək, onlara dəstək olacaqlar.

Aşağı Ağcakənd qəsəbəsi bələdiyyəsi üzvlüyünə namizədliyi irəli sürülmüş Mayıl Əliyev, Sahib Kərimov və Altun Quliyev çıxış edərək, onlara göstərilən diqqət və etimada görə öz minnətdarlıqlarını bildiriblər.

## GƏNCƏ

Yeni Azərbaycan Partiyası Gəncə şəhər təşkilatında 23 dekabr 2019-cu il tarixdə keçiriləcək Bələdiyyə seçkilərinin təbliğat-təşviqat kampaniyası çərçivəsində növbəti görüş YAP tərəfindən irəli sürülmüş müşahidəçilərlə olub. Qəzetimizə daxil olan məlumata görə, görüşdə Yeni Azərbaycan Partiyasının səlahiyyətli nümayəndəsi, YAP-ın Mərkəzi Seçki Qərargahının Gəncə şəhər şöbəsinin sədri, Milli Məclisin deputatı Naqif Həmzəyev çıxış edərək, müstəqil Azərbaycanın inkişafına və tərəqqisinə mühüm töhfələr verən Yeni Azərbaycan Partiyası tərəfindən 23 dekabr 2019-cu il tarixdə keçiriləcək Bələdiyyə seçkilərinə ən layiqli namizədləri irəli sürdüyünü bildirib. Namizədlər arasında, xüsusən, gənclərə və qadınlara üstünlük verildiyini qeyd edən millət vəkili "Xalq üçün" şüarı ilə həyata keçirilən bələdiyyə seçkiləri ilə əlaqədar görülən işlərdən danışıb, Azərbaycan Respublikasının Seçki Məcəlləsində olan əsas anlayışlar, müşahidə aparmağın prinsipləri, müşahidəçilərin hüquqları və riayət etməli olduqları şərtlər barədə ətraflı məlumat verib.





YAP Gəncə şəhər təşkilatı qadınlar şurasının sədri, Milli Məclisin deputatı Pərvin Kərimzadə çıxış edərək, cəmiyyətdə bələdiyyələrin rolunun artmasının vacibliyindən, qarşıda duran vəzifələrdən danışıb. Pərvin Kərimzadə ölkə Prezidenti İlham Əliyevin diqqət və qayğısını daim öz üzərlərində hiss edən gəncəlilərin, əvvəlki seçkilərdə olduğu kimi, bələdiyyə seçkilərində də böyük fəallıq və coşqu nümayiş etdirəcəklərini, bu siyasi kampaniyanın da yüksək mütəşəkkilliklə keçirilməsinə nail olacaqlarına əmin olduğunu bildirib.

## NƏSİMİ

Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatında 23 dekabr 2019-cu il tarixində Azərbaycan Respublikasında keçiriləcək bələdiyyə seçkilərinin təbliğat-təşviqat kampaniyası çərçivəsində YAP Nəsimi rayon təşkilatının qadınlar şurasının üzvləri ilə görüş keçirilib.






Görüşdə YAP Nəsimi rayon təşkilatının sədri Məlahət İbrahimqızı çıxış edərək bildirib ki, toplantının keçirilməsində məqsəd bələdiyyə seçkiləri ərəfəsində qadınların fəallığının artırılması, seçkilərlə əlaqədar bölgələrdə görüşlərin keçirilməsi və digər məsələlərin müzakirəsindən ibarətdir.

Azərbaycanda uğurlu dövlət-qadın siyasətinin həyata keçirildiyini bildirən YAP Nəsimi rayon təşkilatının sədri qeyd edib ki, əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Rayon təşkilat sədri cəmiyyətin müxtəlif təbəqələrini təmsil edən nüfuzlu, ziyalı və fəal qadınların partiyanın sıralarında cəmləşdiyini qeyd edib.

Tədbirdə çıxış edən YAP Qadınlar Şurasının sədr müavini Məhəbbət İbrahimova YAP-ın cəmiyyət həyatındakı mövqeyindən, həyata keçirilən layihələrdən, o cümlədən, YAP Qadınlar Şurasının fəaliyyətindən geniş bəhs edib. O, bələdiyyə seçkilərində qadınları fəal iştirak etməyə çağırıb.

Tədbirin sonunda rayon təşkilatı sədri Yeni Azərbaycan Partiyası tərəfindən Nəsimi rayon bələdiyyə üzvlüyünə irəli sürülmüş namizədlərlə tədbir iştirakçılarını tanış edib və gəncləri qarşıdan gələn bələdiyyə seçkilərində fəal olmağa, YAP tərəfindən irəli sürülmüş namizədlərə səs verməyə çağırıb.

Tədbirdə gənclərə bir sıra təbliğat materialları paylanıb.

***Nəzakət ƏLƏDDİNQIZI***
***Rövşən RƏSULOV***
***ZÜMRÜD BAYRAMOVA***
***RƏFİQƏ HÜSEYNOVA***

# İsmayıllıda Ümummilli Liderin anım gününə həsr edilmiş məşğələ keçirilib



***İ**smayıllı şəhər Mədəniyyət Mərkəzində keçirilən "Heydər Əliyev idarəetmə məktəbi"nin növbəti məşğələsi Ümummilli Liderin anım gününə həsr edilib.*

"Azərbaycan xalqının Ümummilli Lideri, müasir Azərbaycanın qurucusu, dövlətimizin iqtisadi, sosial, hərbi, ideoloji əsaslarını fədakarlıqla yaradan Heydər Əliyev həm Sovet dövründə, həm müstəqillik ərəfəsində, həm də müstəqillik dövründə xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlər göstərmişdir.



Azərbaycanın dövlət müstəqilliyinin əbədiliyinə gedən yol da Ulu Öndərin adı ilə bağlıdır. O Dahi Şəxsiyyət həm də milli xilaskarımızdır. Azərbaycan xalqının taleyi yad əllərə düşəndə, müxtəlif ranqlı rəhbərlər fərarilik edəndə millətə, ölkəyə, yenicə zəif müstəqillik addımlarını atan dövlətimizə Ümummilli Liderimiz Heydər Əliyev sahib çıxdı. Hakimiyyətə gəlməyin yeganə yolunu seçkilərdə görən Ulu Öndərimiz Yeni Azərbaycan Partiyasını yaratdı. Ömrünün qalan hissəsini xalqına bəxş edən Heydər Əliyev dünyasını dəyişən ərəfədə də xalqını düşündü, Onun tale məsuliyyətini özü qədər inandığı Prezident İlham Əliyevə tapşırdı. Artıq 16 ildir ki, Ümummilli Liderin dövlətçilik fəlsəfəsi və azərbaycançılıq ideologiyası Cənab Prezident İlham Əliyevin fəaliyyətində yaradıcılıqla davam etdirilir, Azərbaycanı beynəlxalq miqyasda tanıdır, təsdiq edir". Bu fikirləri "Heydər Əliyev idarəetmə məktəbi"nin geniş tərkibli məşğələsində İdarəetmə Məktəbinin təsisçisi, İsmayıllı rayon icra hakimiyyətinin başçısı Mirdaməd Sadıqov dinləyicilərin diqqətinə çatdırıb. "Heydər Əliyevin dövlətçilik fəlsəfəsi və azərbaycançılıq ideologiyası Prezident İlham Əliyevin rəhbərlik fəaliyyətinin əsasıdır" mövzusuna həsr olunmuş məşğələ başlamazdan əvvəl, iştirakçılar Heydər Əliyevin siyasi və ideoloji irsini, həyat və fəaliyyətini, bölgələrə səfərlərini əks etdirən sərgiyə baxıblar, filmə tamaşa ediblər.

Əbədiyyətə qovuşmuş Ulu Öndərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

YAP rayon təşkilatının aparat rəhbəri Anar Nəbiyev, şəhər 5 saylı tam orta məktəbin müəllimi Nailə Abdullayeva, rayon Gənclər və İdman İdarəsinin rəisi Taleh Salehov, gənclərin inkişafı və karyera mərkəzinin direktor əvəzi İsmayıl Faxtiyev, rayon icra hakimiyyətinin ictimai-siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi Namiq Kərimov əsas mövzudan irəli gələn müxtəlif istiqamətli çıxışlar ediblər. Rayon Təhsil Şöbəsinin keçirdiyi inşa yazı müsabiqəsinin I, II, III yeri tutan qalibləri mükafatlandırılıb. Ümummilli Liderə həsr olunmuş inşa yazı müsabiqəsində birinci yerə layiq görülən Buynuz kənd tam orta məktəbinin şagirdi Nəsirzadə Ayna inşa yazısını təqdim edib.

***ZÜMRÜD BAYRAMOVA***

# Kürdəmirdə Ulu Öndər Heydər Əliyev anılıb

***Ü**mummilli Lider Heydər Əliyevin anım günü ilə bağlı dekabrın 10-da Yeni Azərbaycan Partiyası Kürdəmir rayon təşkilatı qadınlar şurası dəyirmi masa keçirib. Tədbir iştirakçıları əvvəlcə rayon təşkilatının qərargahında Ümummilli Lider Heydər Əliyevin büstünün önünə gül dəstələri düzərək, xatirəsini ehtiramla yad ediblər. YAP rayon təşkilatının akt zalında keçirilən tədbirdə iştirakçıları dahi şəxsiyyət, Ulu Öndər Heydər Əliyevin nurlu və əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.*



Tədbiri giriş sözü ilə YAP rayon təşkilatı qadınlar şurasının sədri Sevda Hacıyeva çıxış edərək Ümummilli Lider Heydər Əliyevin vəfatından 16 il ötdüyünü deyib: "Tarixi şəxsiyyət olan Ulu Öndər bütün həyatını dövlətçiliyimiz, xalqımızın bu günü və gələcəyi naminə həsr edərək güclü, sarsılmaz, qüdrətli bir dövləti - Azərbaycanı bizə ərmağan etdi. Dahi Şəxsiyyət Heydər Əliyevin ölməz, əbədi xatirəsini xalqımız hər an yad edir və xatırlayır".



Tədbirdə YAP rayon təşkilatının idarə heyətinin üzvü, şəhər 6 saylı tam orta məktəbin direktoru, əməkdar müəllim Elmira Şıxəliyeva, Heydər Əliyev Mərkəzinin direktoru, rayon təşkilatının idarə heyəti üzvü Dürriyə Seyidova, rayon təşkilatının qadınlar şurasının idarə heyətinin üzvü, Uşaq - İncəsənət Məktəbinin direktoru Qəndaf Zülfüqarova, rayon təşkilatının qadınlar şurasının idarə heyətinin üzvü, N.Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyinin Aran şöbəsinin müdiri Yaqut Əşrəfova, rayon təşkilatı qadınlar şurası və idarə heyətinin üzvü, Kürdəmir rayon Mərkəzi Kitabxanalar Sisteminin direktoru İradə Mahmudova çıxış edərək bildiriblər ki, bütün bu uğurların, ictimai fəallığın arxasında Heydər Əliyev qayğısı, Azərbaycan dövlətinə məhəbbət və Azərbaycan qadınına hörmət və qayğıkeşlik dayanırdı.

YAP Kürdəmir rayon təşkilatının sədri Ağali Kərimli çıxış edərək bildirib ki, bütün varlığı ilə Azərbaycana və azərbaycançılığa xidmət edən dahi rəhbərimiz əbədiyyətə qovuşmağı ilə də xalqımızı birləşdirdi: "Öz ideyaları ətrafında xalqımızı birləşdirən Ümummilli Lider Heydər Əliyevin müqəddəs ruhu bu gün bizi bütövləşdirir və mətinləşdirir. Bu gün Ümummilli Lider Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan inkişaf edərək yeni-yeni uğurlara imza atır".

***R.HÜSEYNOVA***

# Almaniya jurnalında Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məqalə dərc olunub

**A**lmaniyanın "Qafqazda siyasət və cəmiyyət" adlı elmi jurnalında AZƏRTAC-ın Siyasi və rəsmi xəbərlər redaksiyasının əməkdaşı, siyasi elmlər üzrə fəlsəfə doktoru Anar Allahverdinin və Cənub-Şərqi Avropa və Qafqaz Araşdırma Mərkəzinin rəhbəri doktor Xristian Yohannes Henrixin həmmüəllifi olduqları, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən bəhs edən məqalə dərc olunub.




AZƏRTAC xəbər verir ki, məqalədə ermənilərin tarixən həyata keçirdikləri təcavüzkar siyasət nəticəsində Azərbaycan torpaqlarının işğal olunduğu qeyd edilib. Münaqişənin yaranma tarixi, eləcə də onun həlli istiqamətində atılan addımlar təhlil olunub.

Qeyd edək ki, "Qafqazda siyasət və cəmiyyət" jurnalı Fridrix Şiller adına Yena Universitetinin Avropa Tədqiqat İnstitutunun rəhbəri, siyasi elmlər üzrə professor Olaf Leissenin rəhbərliyi ilə işıq üzü görüb. Jurnalda Almaniyadan, həm də Qafqazdan olan elm xadimlərinin əsərləri öz əksini tapıb. Məqalələrdə əsasən Azərbaycan, Gürcüstan və Ermənistan cəmiyyətlərində cərəyan edən siyasi proseslərin təhlili aparılıb. Professor Olaf Leisse Cənubi Qafqazın ənənələr və transformasiya arasında qeyri-sabit region kontekstində araşdırılmasını təşviq edərək regionun Avropaya inteqrasiyasında mümkün imkanları və riskləri müxtəlif müəlliflərin təhlili əsasında dəyərləndirib.

# "EuroHome" tikinti materialları bazarında baş vermiş yanğın söndürülüb

***D**ekabrın 10-da səhər saatlarında Bakı şəhəri Binəqədi rayonu ərazisində yerləşən "EuroHome" tikinti materialları bazarında baş vermiş yanğın Fövqəladə Hallar Nazirliyinin (FHN) qüvvələri tərəfindən söndürülüb. AZƏRTAC xəbər verir ki, yanğının söndürülməsi üçün əraziyə FHN-in Dövlət Yanğından Mühafizə Xidmətindən 29 ədəd texnika və 150 nəfər canlı qüvvə, Xüsusi Riskli Xilasetmə Xidmətindən 16 ədəd texnika və 200 nəfər canlı qüvvə, Aviasiya dəstəsindən 3 ədəd helikopter və 1 ədəd "BE-200ÇS" tipli təyyarə, Mülki müdafiə qoşunlarından 3 ədəd texnika və 53 nəfər canlı qüvvə cəlb olunub. Soyutma işləri davam etdirilir.*





İlkin hesablamaya əsasən, bazarın təxminən 5 hektarlıq ərazisinin 2 hektarı yanıb. Bazarın qalan hissəsi və bitişik tikintilər, o cümlədən yaşayış evləri yanğınsöndürənlərin şücaəti ilə yanğından mühafizə olunub. İlkin ehtimala əsasən, yanğın bazarda yerləşən kafel-metlax satışı mağazasında elektrik kabellərində başlayıb. Hazırda araşdırma işləri davam etdirilir.

# AXCP-”Milli Şura” cütlüyünü və “REAL”ı bir-birinə kim vurdu?

*Ortada Gültəkin Hacıbəylinin mərdimazar barmağı var*

***Erkən parlament seçkilərinin keçirilməsi ilə bağlı qəbul olunmuş qərar müxalifəti, xüsusilə, ənənəvi və radikal kəsimi əməlli-başlı çalxalayıb. Belə ki, partiya və qurumların bir hissəsi, daha dəqiq desək, AXCP-”Milli Şura” cütlüyü boykot qərarı üzərində dayansa da, digər tərəf seçkilərə gedəcəyini bəyan edir, bu isə, vəziyyəti daha da gərginləşdirir. Artıq məlum olduğu kimi, Müsavat partiyası seçkilərdə iştirak qərarnı verib və bu qərardan sonra AXCP sədri Əli Kərimli “Milli Şura”nın koordinasiya mərkəzinin üzvü Gültəkin Hacıbəylini qarşı tərəfə hücuma göndərib. Nəticədə, cinahlar arasındakı dava, sözün əsl mənasında, şişərək-partlayıb. Seçkiləri boykot edəcəyini bəyan edən “Milli Şura”ya görə, Müsavat seçkilərə siyasi tapşırıq əsasında gedir və müsavatçıların bu addımı erkən seçkilərə legitimlik qazandıracaq. Yəni Ə.Kərimlinin egidası altındakı bu qurum növbəti dəfə öz düşərgədaşlarını “hakimiyyətə işləmək” suçunu aşılayır.***

## Gültəkin Hacıbəyli xal toplamaq üçün yenə də xalqın adından danışır

Lakin o da sirr deyil ki, bu ənənə, daha dəqiq desək, radikalların bir-birlərini hakimiyyətə işləmək, düşərgəyə xəyanət etmək iddiaları yeni məsələ deyil. Bu baxımdan, müsavatçılar da, dərhal eyni suçlamanı, xüsusilə, AXCP rəhbərliyinə qaytarıblar. Partiya rəhbərliyi və tərəfdarları iddia edirlər ki, onları ittiham edən boykotçular indiyə qədər iqtidar daxilində müəyyən bir qrupun tapşırıqları əsasında fəaliyyət göstəriblər və həmin qrup hazırda “vurulmuş” hesab olunur və s. Əslində, isə cinahları bir-birinə vuran G.Hacıbəylinin bu məsələdə müsavatçıları ittiham edən statusları da maraq doğurur. Yəni o, bu variantdan istifadə edərək, seçkilərə qatılmayacağını deyərək, radikallar qarşısında xal toplamağa çalışır. Misal üçün deyir ki, hətta “Milli Şura” seçkilərdə iştirak qərarı versəydi belə, mən ona qatılmayacaqdım. Digər tərəfdən, xalqın onu və Ə.Kərimli-Cəmil Həsənli cütlüyünü dəstəkləmədiyini, bundan sonra da, heç vaxt dəstək verməyəcəyini yaxşı bilən Hacıbəyli özünü bir addım önə çəkib, xalqın adından danışmağı da unutmayıb. “...Odur ki, hərə düz bildiyi yolla getsin, kimin haqlı olduğuna biz yox, əlahəzrət xalq və zaman qərar verəcək, cəmi iki ay sonra. Çalışaq, salamat qalaq” deyə öz təbirincə, guya təsirli status yazdığına özünü inandırmağa çalışaraq yazıb.

## Hədəfdə İsa Qəmbər də var...

Yeri gəlmişkən, Müsavatçıların bostanlarına daş atan G.Hacıbəyli



“MSDM” sədri İsa Qəmbəri də, necə deyərlər, “qıdıqlamağı” unutmayıb. Məsələ ondadır ki, İ.Qəmbər Müsavatın başqanı olarkən, G.Hacıbəyliyə başqan müavinliyi postunu təklif edib və Hacıbəyli bundan imtina edib. Bu günlərdə isə, o, İ.Qəmbərlə danışığının təfərrüatlarını sosial şəbəkədə yazsa da, qarşı tərəf bundan qəzəblənib.

“Hörmətli İsa Qəmbər bildirib ki, gərək mən onunla ikilikdə aramızda olan söhbəti ictimailəşdirməyəydim. Söhbət onun mənə 2013-cü ilin payızında Müsavat partiyasının beynəlxalq məsələlər üzrə başqan müavini vəzifəsini təklif etməsindən gedir. Birincisi, mən bu təklifə görə İsa bəyə bir daha təşəkkür edirəm, onu yüksək dəyərləndirirəm... İmtina etmişəm və hesab edirəm ki, düz etmişəm...”

G.Hacıbəyli, onu da iddia edib ki, seçkidə Müsavat və “REAL” partiyalarının hərəsi bir neçə mandat alacaq. Lakin Müsavat qurultaydan və mühacir biznesinin ifşa olunmasından sonra faktiki nüfuzsuz təşkilata çevrilib, “REAL” isə sədr İlqar Məmmədovdan ibarət partiyadır. Bu durumda “Milli Şura” funksioneri onların seçkidə uğur qazana biləcəyini mümkünsüz gördüyünü bildirib.

## “REAL”ın bostanına atılan daş geri qayıdıb

Nəticədə, “REAL”ın da cavabı gecikməyib. Partiyanın icra katibi Natiq Cəfərli mətbuata açıqlamasında bildirib ki, G.Hacıbəylinin bu mövzuda danışmağa haqqı yoxdur: “Adam iki dəfə mandat alıb. Elə düşünür ki, Azərbaycanda hamı onun kimi mandat alıb, heç bir iş görməyə bilər. Yəni öz təcrübəsinə əsaslanaraq, bunu deyir. Onu da qınamıram. Çünki həyatda başqa heç nə görməyib. Onun kimi nüfuzu, ciddi siyasi keçmişi olmayan bir insan parlamentə düşübsə, düşünür ki, hamı belə bir addım ata bilər. “REAL” partiyası səs toplayıb, parlamentdə yer qazanmaq istəyir. Biz mandat almaq yox, qazanmaq istəyirik. Gültəkin xanım bu kateqoriyalarla düşünə bilmir. Çünki həyat təcrübəsi ona mandat qazanmaq haqqında düşünməyə imkan vermir”.

## Natiq Cəfərli: “Əslində, “Milli Şura” yoxdur, AXCP var”

İlqar Məmmədova gəlincə isə, N.Cəfərli deyib ki, bu məsələdə Gültəkin Hacıbəyli həyatının son təcrübələrinə əsasən, çıxış edir: “Bu gün təmsil olunduğu siyasi qurum bir nəfərdən ibarətdir. G.Hacıbəyli də o bir nəfərin, yəni Əli Kərimlinin ağzına baxır. Ona görə son dövrlərin şəxsi təcrübəsindən çıxış edir... “REAL” partiyasının sədri, hətta həbsdə olan vaxt təkliflər göndərib və onlar idarə heyətindən keçməyib. Gültəkin xanım barmağını qatlayıb, bircə fakt sadalaya bilməz ki, onun təmsil olunduğu “Milli Şura”da belə hal olub. Əslində, “Milli Şura” yoxdur, AXCP var. Bu partiyanın liderinin hər hansı bir təklifinin keçmədiyi halı Gültəkin xanım söyləyə bilməz. Xatırlayıram ki, İlqar Məmmədovun 11 təklifi idarə heyətindən keçməyib. Bu gün də partiyada kollektiv qərar verilir. Bir sözlə, Gültəkin Hacıbəylinin açıqladığı fikirləri öz həyat təcrübəsinin güzgüdə əksi kimi təsəvvür etmək mümkündür”.

Müsavat funkdionerləri də G.Hacıbəylinin məlum məsələ ətrafındakı vargəllərini ələ salaraq, gülüblər. Məsələn, Müsavat başqanının müavini Səxavət Soltanlı belə bir statusu paylaşıb: “Deyirlər, Gültəkin Hacıbəyli Müsavata, “REAL”a və bəzi vətəndaş cəmiyyəti nümayəndələrinə mandat paylayırmış”.

Beləliklə, daha bir ehtimal budur ki, erkən seçkilərin keçirilməsi ənənəvi və radikal cinahda olan müxalifətin də siyasi arenadan erkən getməsinə səbəb olacaq. Görünən də, məhz budur!

***Rövşən RƏSULOV***



## Bədbəxt Cəmil, “eto tebe nado?”

RƏFİQƏ

***Bəzi televiziya verilişlərində gündəmə çıxan ucuz şoular kimi, bizim müxalifətdə də ucuz şoular tükənməzdir. Hətta pişiklərin asqırmasını belə, “məharətlə” siyasiləşdirib, onu şou hadisəsinə çevirmək düşərgə “liderlərinin” əsas peşəsidir. Əslində, onların yerləri siyasi mühit deyil, elə televiziyalardakı ucuz şou verilişləridir. Hələlik, müxalifət düşərgəsində başlarını girləyərək, gündəmdə qalmaqdan ötrü şou xarakterli siyasət yürüdürlər. Məsələn, bu gün AXCP sədri Əli Kərimliyə, “Milli Şura” sədri Cəmil Həsənliyə sərf edir ki, sekçiərəfəsi ictimaiyyət arasında gözlərə dürtülməkdən ötrü nəsə bir “partlayış” etməklə, bunu öz dividendlərinə yazsınlar. Görünür, elə buna görə də, qoca yaşında nə yaşından, nə də “başından” utanmayan C.Həsənli indi də imicini və “priçoskasını” dəyişməklə, nəinki şou, hətta meqaşou göstərmək istəyir. Ancaq necə deyərlər “qaş düzəltdikləri yerdə, vurub o kor gözlərini də tökürlər”. Ancaq bu kor olmuşların heç ağılları da yoxdur.***

Bu yerdə Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyev sözümüzü kəsərək, bildirdi ki, ay başınıza dönüm, Vaşinqtonda özünə təzə bığ qoyan bu zəlil olmuş Həsənov Cəmilin məqsədi ölkədə ardıcıl keçiriləcək seçkilərə kölgə salmaqdır. “Hər dəfə ölkədə hansısa bir seçkilər keçirilən zaman müxalifət düşərgəsini təmsil edən şəxslər başlayırlar hay-küy salmağa. Bunun Əlisi də gedib Vaşinqtonda özünə təzə bığ qoyan Həsənov Cəmil də, artıq bu seçkilərə bağlı anormal çıxışlar etməyə başlayıblar. Deməк olar ki, ömürləri boyu onlar bu cür xəyanətlərlə məşğul olublar və olmağa da davam edirlər. Amma onların nə istəmələrindən və nə etmələrindən asılı olmayaraq, onların heç vaxt məkrli planları baş tutmayacaqdır”.

Bu, o ağıldan kəm olan C.Həsənlidir ki, əvvəlki seçkilərdə hər dəfə debatlara qatılmaqla, daha da hörmətdən düşərək, əslində, ziyalı adına yaraşmayan fikirlər səsləndirib, populist çıxışlar edirdi. Onun “uca millət” kimi artistlikdən doğan ifadələri isə, ümumiyyətlə ət tökürdü! Bu adam illər keçsə də, yenə də özünü “lider” hiss edir təəssüf ki. Görünür, dəlixanalardakı dəlilərdən bu qoca, lazımsız professorun fərqi-zadı da qalmayıb.

Artıq illər keçməsinə baxmayaraq, bu gün düşdüyü gününə ağlayan gərəkdir, ancaq ağlayanı yox, balta vuranı Ə.Kərimli isə, neçə illərdir ki, o baltanı vurmaq istəyir, amma bu qoca xəstə “professor” “olmaz-olmaz” deyir. Bax, bədbəxtçilik də bundadır, “professor” olmaq hələ ağıllı olmaq deyil. Ağıllı olmağın yolları var, ancaq bu bədbəxt, Ə.Kərimli kimi əxlaqsızın yollarını bilir. Görünür, bu gün C.Həsənlinin ətrafı da, onu çox yəqin ki, məzəmmət edib, deyirlər ki, ay bədbəxt Cəmil, “eto tebe nado?”, getdin düşdün Ə.Kərimli kimi bir dələduzun toruna? Axı, sən yaşlı adamsan, özünü “professor” sayırsan. Amma indi səni “professor” sayanlar da yoxa çıxıb!

# Baş prokurorun xüsusi nəzarətə götürdüyü məsələ ilə bağlı cinayət işi başlanıb

***Bakıda azyaşlı uşaqlara ögey anaları tərəfindən işgəncə verilməsi barədə yayılan məlumatlarla bağlı cinayət işi başlanıb.***

AZƏRTAC xəbər verir ki, bu barədə Baş Prokurorluğun Mətbuat xidmətinin rəhbəri Eldar Sultanov öz “Facebook” səhifəsində məlumat yayıb.

Eldar Sultanov bildirib ki, paytaxtın Sabunçu rayonu ərazisində azyaşlılar - Qulu və Hüseyn adlı qardaşların ata və ögey anaları tərəfindən işgəncələrə məruz qalmaları xüsusatlarının istintaq yolu ilə araşdırılması məqsədi ilə Cinayət Məcəlləsinin 127.2.2 (qəsdən sağlamlığa az ağır zərər vurma, xüsusi amansızlıqla, o cümlədən zərərçəkənə ağır iztirablar verməklə və ya sifarişlə, habelə təqsirkar üçün aşkar surətdə köməksiz vəziyyətdə olan şəxs barəsində törədildikdə), 133.2.3 (əzab vermə, bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (təşkilat) tərəfindən törədildikdə) və 133.2.4-cü (əzab vermə, təqsirkar şəxs üçün aşkar surətdə yetkinlik yaşına çatmayan, habelə köməksiz vəziyyətdə olan şəxsə qarşı törədildikdə) maddələri ilə cinayət işi başlanıb.



İş üzrə ibtidai istintaqın tam, hərtərəfli və obyektiv həyata keçirilməsini təmin etmək məqsədi ilə istintaqın aparılması Bakı şəhər prokurorluğunun İstintaq idarəsinə tapşırılıb.

Cinayət işi üzrə müvafiq ekspertizalar təyin olunub, şahidlər dindirilib və digər təxirəsalınmaz istintaq hərəkətləri aparılıb. Hazırda cinayət işi üzrə qeyd olunan qanunsuz halları hərtərəfli araşdırılmaqla, təqsirli şəxslərin dairəsini müəyyənləşdirilməklə cinayət məsuliyyətinə cəlb edilmələri istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

# Qarabağ müharibəsi iştirakçılarının hüquqlarını müdafiə edən ictimai birliklər

***Azərbaycan müstəqillik qazanandan sonra ölkədə cəmiyyətin bir hissəsi olan əlillərə dövlət qayğısı dəfələrlə artıb. Bu sahədə bir çox qanunlar qəbul olunub, vaxtaşırı əlillərə mənzil, maşın və sair vasitələr hədiyyə edilir, ildən-ilə onlara verilən pensiya və təqaüdlər artırılır. Bundan əlavə, Azərbaycan dövləti 13 dekabr 2006-cı il tarixində "Əlillərin hüquqları haqqında" Beynəlxalq Konvensiyanın Fakültətiv Protokoluna qoşulmaq barəsində qanun da qəbul edib.***

Məhz həmin qanunda insana aid olan bütün hüquq və azadlıqların qorunması nəzərdə tutulur və təbii ki, Azərbaycan da həmin sənədi imzalamaqla, bu öhdəlikləri öz üzərinə götürmüş olub. Yeri gəlmişkən, Beynəlxalq Konvensiyanın 1-ci bəndində insanların, o cümlədən, əlillərin hüquqları təsbit olunub. Bu Konvensiyanın məqsədi bütün əlillər tərəfindən insan hüquqlarının və əsas azadlıqlarının tam, bərabər səviyyədə həyata keçirilməsini həvəsləndirməkdən, müdafiə və təmin etməkdən, eləcə də, onların ləyaqətinə hörmət göstərilməsini həvəsləndirməkdən ibarətdir. Konvensiyada göstərilir ki, əlillər kateqoriyasına müxtəlif maneələrlə qarşılıqlı təsir zamanı onların digərləri ilə bərabər səviyyədə cəmiyyətin həyatında tam və səmərəli iştirakına mane olan sabit fiziki, psixi, əqli və ya hissiyyat pozuntuları olan insanlar aiddir. Sənədin 3-cü maddəsində isə ümumi prinsiplər göstərilib: a) şəxsi seçim etmək azadlığı və müstəqilliyi də daxil olmaqla, insan ləyaqətinə, onun şəxsi sərbəstliyinə hörmət olunması; b) ayrı-seçkiliyə yol verilməməsi; c) cəmiyyətə tam və səmərəli cəlb olunma və daxil olma; d) əlillərin xüsusiyyətlərinə hörmət olunması və onların insan müxtəlifliyinin komponenti və bəşəriyyətin bir hissəsi kimi qəbul olunması; e) imkanların bərabərliyi; f) müyəssərlik; g) kişi və qadınların bərabərliyi; h) əlil uşaqların inkişaf edən qabiliyyətinə hörmət və onların öz fərdiliyini saxlamaq hüquqlarına hörmət. Konvensiyanın 5-ci maddəsinə əsasən, Azərbaycan dövləti əlil vətəndaşların digərlərindən fərqləndirilməsi üçün öz üzərinə öhdəlik götürüb. Burada, xüsusilə, əlil qadınlar və uşaqlar haqqında ayrıca maddələr qeyd olunub. Bu da, ona görə nəzərdə tutulub ki, məhz qadınlar və uşaqlar, belə demək mümkündürsə, zəif təbəqə olduğundan, daha çox ayrı-seçkiliyə və istismara məruz qalır. Ona görə də, Azərbaycan dövləti bu kimi halların baş verməməsi üçün, beynəlxalq qanunlarda nəzərdə tutulduğu kimi, öz vətəndaşlarının hüquqlarını çox ciddi tərzdə qoruyur.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Əlillərin Sosial Müdafiəsi Baş İdarəsindən Müstəqil İnformasiya Agentliyinə verilən məlumata görə, hazırda Azərbaycanda 450 mindən çox əlil yaşayır. Dövlət hər ay əlillik qruplarına uyğun olaraq, onlara pensiya və sosial müavinətlər verir. Amma sosial müavinətlər aşağı olduğundan, həmin vəsaitlə əlillər kommunal xidmətləri ödəməyə, müalicə olunmağa və normal qidalanmağa çətinlik çəkirlər. Azərbaycanda əlillərin cəmiyyətə inteqrasiyası ilə bağlı ciddi problemlər var. Bu gün əlillərin əsas problemlərindən biri təhsil ala bilməmək, işsizlik və mənzillə bağlıdır. Qanunla dövlət müəssisələrində hər 50 işçidən biri, güzəştli kateqoriyadan olanlar, o cümlədən, əlillər olmalıdır.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin məlumatına görə, hazırda, əsasən, mənzilə ehtiyacı olan Qarabağ əlilləri üçün evlər tikilib, istifadəyə verilir. Hazırda respublikamızda əlillər üçün 9 bərpa mərkəzi fəaliyyət göstərir ki, həmin yerlərdə ildə 5000 əlil bərpa müalicəsi alır. 2011-ci ildə də əlillərin sosial müdafiəsi ilə bağlı bir sıra tədbirin həyata keçirilməsi nəzərdə tutulur. Bura əlillər üçün idman - sağlamlıq, reabilitasiya mərkəzlərinin istifadəyə verilməsi, onların xaricdə müalicəsinin təşkili məsələləri də daxildir.

Əlillərə qayğı məsələsində ölkəmizin Birinci Xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun əməyi də böyükdür. Məhz bu fondun köməkliyi ilə əlillər üçün xüsusi mərkəz tikilib, onların vaxtaşırı zəruri ehtiyacları ödənilir, diabetli xəstələr üçün dərmanlar alınır və sair.

Onu da xatırladaq ki, Nazirlər Kabineti "2010-cu ildə əlillərin sosial müdafiəsi ilə bağlı tədbirlərin maliyyələşdirilməsinin Dövlət Proqramı"nın və "2010-cu ildə ilk dəfə işaxtaranların və işsiz vətəndaşların sosial müdafiəsi ilə bağlı tədbirlərin maliyyələşdirilməsinin Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında 38 saylı qərar qəbul edib.

Azərbaycan Respublikası Qarabağ Əlilləri, Şəhid Ailələri və Müharibə Veteranları İctimai Birliyi 14 fevral 2001-ci ildə Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən qeydiyyata alınmışdır. AQMVŞAİB-in sədri Mehdi Mehdiyevdir.

Birliyin məqsədi Qarabağ müharibəsi əlillərinin, şəhid ailələrinin və veteranlarının qanuni mənafelərini və hüquqlarını müdafiə etməkdir, onların müasir həyat şəraitinə uyğunlaşdırılmasına, sosial-iqtisadi və mənəvi probremlərinin daha səmərəli həll olunmasına köməklik göstərmək, onların əməkdaşlığını və qarşılıqlı əlaqələrini möhkəmləndirməkdən ibarətdir.

Birliyin fəaliyyəti aşağıdakı prinsiplər üzrə qurulur:

insan və vətəndaş hüquqlarına riayət olunması;

müharibə əlilləri, şəhid ailələri və veteranların maraqlarının müdafiə edilməsi;

· onların zəruri tələbat və ehtiyaclarının nəzərə alınması;

onlara sosial uyğunlaşma tədbirlərində üstünlük verilməsi;

Qarabağ müharibəsi əlillərinin, şəhid ailəsi və veteranlarının mövcud problemlərinin aidiyyatı orqanlara və KİV vasitəsi ilə ictimaiyyətə çatdırılması;

Dövlətin yaratdığı imkan və güzəştlərdən bütün Qarabağ müharibəsi əlillərinin, şəhid ailələrinin, veteranlarının və digər bu kateqoriyalardan olan şəxslərin bərabər və ədalətli bəhrələnməsi;

Onların hüquq və mənafelərinin etibarlı şəkildə qorunmasına şəraitin yaranması;

## Birliyin vəzifələri və hüquqları

Qarabağ müharibəsi əlillərinin, şəhid ailələrinin, veteranlarının hüquq və maraqlarının qorunması üçün qanunvericilikdə və mövcud olan Nizamnamə ilə nəzərdə tutulmuş bütün vasitə və müdafiə üsullarından istifadə etmək;

Qarabağ müharibəsi əlillərinin, şəhid ailələrinin, veteranlarının hüquq və maraqlarının qorunması üçün dövlət, hakimiyyət və idarəetmə orqanları qarşısında vəsatət qaldırmaq;

Maddi və mənəvi yardım göstərmək;

Yerlərdə fəaliyyətini qurmaq üçün şəhər, rayon, qəsəbə və kəndlərdə yerli filiallarını və nümayəndəliklərini yaratmaq;

Əlillərin, şəhid ailələrinin, veteranların ictimai mühitə uyğunlaşması üçün elmi-metodiki prinsipləri işləyib-hazırlamaq;

Onlara sosial xidmət göstərilməsinə yardım edilməsi və bu xidmətin keyfiyyətinin yoxlanılması;

Sosial xidmətlərini həyata keçirən orqanlara, həmçinin, dövlət hakimiyyət və idarəetmə orqanlarının bütün səviyyələrinə sosial xidmətin yaxşılaşdırılması barədə tələb və təkliflə müraciət etmək;

Sosial xidmətlərin göstərilməsi hüquqları, vızifələri və şərtləri barədə məlumat verir və onların səhhətini, peşə bacarığına uyğun iş tapmaqda köməklik göstərir;

Öz məqsədləri və fəaliyyət istiqamətləri barədə sərbəst şəkildə məlumat yayır;

Seminarlar, kurslar, mühazirələr, dəyirmi masalar təşkil edir və keçirilməsini təmin edir;

Yarmarkalar, sərgilər, konsertlər, ədəbi-bədii gecələr və digər mədəni-kütləvi tədbirlər keçirmək;

Xeyriyyə marafonları keçirmək;

Operativ telefon köməyi və məsləhət xidmətlərinin işini təşkil edir;

Qarabağ müharibəsi əlillərinin, şəhid ailələrinin və veteranlarının emosional, psixoloji, və fiziki bərpası üçün müvafiq tədbirlər həyata keçirir;

Əlillər, şəhid ailələri, veteranlar ilə əlaqədər qanunvericilkdə nəzərdə tutulmuş qaydada dövlət hakimiyyət və özünüidarəetmə orqanlarının qərarlarının işlənib-hazırlanması təşəbbüsü ilə çıxış edir və təkliflər verir;

Kütləvi informasiya vasitələri təsis edir və nəşriyyat fəaliyyətini həyata keçirir;

İctimai həyatın müxtəlif məsələləri üzrə rəyini bildirir, dövlət hakimiyyət orqanları qarşısında müxtəlif təkliflərlə çıxış edir;

"Qeyri-hökumət təşkilatları haqqında" Azərbaycan Respublikası Qanununda nəzərdə tutulmuş səlahiyyətlərindən tam həcmdə istifadə edir;

Qarabağ müharibəsi əlillərinin, veteranlarının və şəhid ailələrinin ehtiyaclarını nəzərə almaqla, öz fəaliyyətini sərbəst şəkildə planlaşdırır və inkişaf perspektivlərini təyin edir;

Birlik öz adından əqdlər, müqavilələr, kontraktlar, sazişlər və s. bağlamaq, əmlak və şəxsi qeyri-əmlak hüquqları əldə etmək və daşımaq, məhkəmədə və İqtisad Məhkəməsində iddiaçı və cavabdeh qismində iştirak etmək, birliyin hüquqi statusundan irəli gələn və qanunvericiliyə zidd olmayan digər hərəkətlər etmək.

23.11.2017-ci il tarixində Mərdəkan Mədəniyyət Sarayında Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin Xəzər rayon filialının yeni 5 il müddətinə sədrin seçilməsi və ötən 5 il ərzində görülən işlər haqqında hesabat yığıncağı keçirilmişdir. Tədbirdə RİH Aparatının İctimai-Siyasi və Humanitar Məsələlər şöbəsinin müdiri Gülbala Qurbanov, Respublika Qarabağ Əlilləri, Şəhid Ailələri və Müharibə Veteranları İctimai Birliyinin Nəzarət-Təftiş Komissiyasının sədri Ariz Məmmədov, millət vəkili Rauf Əliyevin köməkçisi Əfrasiyab Əmirov, Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin Xəzər rayon filialının sədri Səfa Əliyev və Birliyin üzvləri iştirak etmişdir. Tədbirdə RİH Aparatının İctimai-Siyasi və Humanitar Məsələlər Şöbəsinin müdiri Gülbala Qurbanov iştirak etmiş, hesabat məruzəsi ilə Səfa Əliyev, Şəhid Ailələri və Müharibə Veteranları İctimai Birliyinin Nəzarət- Təftiş Komissiyasının sədri Ariz Məmmədov, II qrup Qarabağ əlilləri İslam Əzimov, Gülbətin Həmidova və Fariz Əliyev çıxış etmişlər. Səfa Əliyev yenidən ictimai birliyin Xəzər rayon filialının sədri seçilmişdir.

**VAHİD ÖMƏROV,**
***fəlsəfə üzrə fəlsəfə doktoru***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 11 dekabr

## UTGDİB yeni layihəsini həyata keçirdi

***Azərbaycan Respublikası "Uşaq və Tələbə Gənclər Dünyası" İctimai Birliyi Azərbaycan Respublikası Gənclər Fondunun maliyyə dəstəyilə "Sağlam həyat tərzi, Geni Modifikasiya Olunmuş (GMO) ərzaq bitkilərinin orqanizmə təsiri" adlı layihəni Suraxanı rayonu B.Qulamoğlu adına 285 nömrəli tam orta məktəb, 279 saylı tam orta məktəb və Səməd Abdullayev adına 290 nömrəli məktəbində həyata keçirdi. SİA-nın xəbərinə görə Azərbaycan Respublikası Uşaq və Tələbə Gənclər Dünyası İctimai Birliyi şəhid, əlil, qaçqın, məcburi köçkün, valideynsiz (bəzən hər ikisini itirmiş), və imkansız ailələrdən olan uşaq, gənc və tələbələrin problemlərini aradan qaldırmaq üçün Azərbaycan Respublikasının qanunvericiliyi çərçivəsində dövlət orqanları və digər təşkilatlarla əlaqələr yaradır, birgə humanitar tədbirlər həyata keçirir. Hazırda birlik üzvlərinin sayı 1000-dən çoxdur. Cəmiyyət müxtəlif profillər üzrə istedadlı uşaqları axtarıb taparaq üzə çıxarır, uşaqlar arasında müsiqi festivalı, idman yarışları keçirərək qalibləri mükafatlandırır. Təşkilatın 8 rayonda şöbələri fəaliyyət göstərir.***



Layihənin əsas məqsədi məktəblilərdə qida təhlükəsizliyinin təbliğ edilməsi, onlarınmaarifləndirilməsi, sağlam həyat tərzinin təbliği və təşviqidir.

Layihədə 600 nəfərə iştirak edib və təşkilatın sədr müavini, layihə rəhbəri Bəxtimşah Tağıyeva onlara mövzuya uyğun məlumat verib. Layihə iştirakçılarına təsvirli köynəklər, papaqlar, sertifikatlar paylanılıb, layihə haqqında maarifləndirici bukletlər verilib. Tədbirin sonunda hər məktəbdə şirniyyat süfrəsi açılıb.

GMO məhsullarının əldə edilməsi zamanı heyvan geninin bitkiyə və ya əksinə, bitki geninin bitkiyə və ya heyvan geninin heyvana köçürülməsi baş verir. Burada əsas məqsəd donor orqanizmlərdən arzu olunan əlamətləri idarə edən genlərin köçürülməsi və onların yeni sahib orqanizmdə sintez olunmasıdır. Gen köçürülməsi zamanı təkcə fərqli bitki növləri deyil, həmçinin heyvan orqanizmlərindən (balıq, əqrəb, siçan, müxtəlif həşəratlar və s.) ayrılmış genlər donor kimi istifadə olunur.auditoriya layihə haqqında məlumatlandırıldı.Gələcək nəslin sağlam qidalanmasını öyrənmək üçün respublikada genetik analiz aparılan labaratoriyalar yaradılmalıdır. Müasir genetika mühəndisliyi bütün dünyada ətraflı öyrənilir, məqsəd əgər insanın hər hansı bir hissəsi sıradan çıxıbsa onu yeniləmək, xəstəliyi aradan qaldırmaq və sağlam yaşatmaqdır. İnanırıq ki, bir gün bunlar həqiqətən olacaqdır.

## ELAN

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Korreksiyaedici təlimin metodika və metodologiyası ixtisası üzrə II kurs magistri Vəliyeva Səkinə Həbib qızının adına verilmiş magistr bileti itdiyi üçün etibarsız sayılır.

***

Azərbaycan Dövlət Pedaqoji Universitetinin TSP 1903B qrup tələbəsi Həbibzadə Nəzmin Yaqub oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

***

ADPU-nun Fizika müəllimliyi ixtisası üzrə II kurs tələbəsi Əsgərova Gülnarə Nemət qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

***

Abbasov Fərahim Güloğlan oğlunun adına verilmiş torpağın mülkiyyətə verilməsi barədə JN-5578A nömrəli şahadətnamə (KOD:30401004) itdiyi üçün etibarsız sayılır.

## "Bakcell"in stendi "Ən yaxşı korporativ üslub" sertifikatına layiq görüldü

***Bakcell şirkəti 25-ci Yubiley Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar Sərgisində təqdim etdiyi stendə görə "Ən yaxşı korporativ üslub" sertifikatına layiq görülüb. Sertifikat "BakuTel-2019" sərgisinin təşkilatçısı Caspian Event Organizers (CEO) tərəfindən təqdim edilib.***





Şirkət öz ənənəsinə sadiq qalaraq stendində Azərbaycanın ən böyük mobil şəbəkəsini və ən sürətli mobil internet xidmətini, özünün son nailiyyətlərini nümayiş etdirib, həmçinin bir sıra əyləncəli tədbirlər, maraqlı oyunlar və müsabiqələr təşkil edib. Bundan əlavə, Bakcell öz stendində şirkət üçün yeni ayrılan "099" prefiksinin də yaxın gələcəkdə istifadəyə veriləcəyini elan edib.

"Bakutel sərgisi şirkətimizin şəbəkəsinin üstünlüklərini nümayiş etdirmək üçün əla fürsət yaradıb. Bu il beynəlxalq nüfuza malik olan "Ookla" şirkəti növbəti dəfə Bakcell şirkətini Azərbaycanın ən sürətli mobil şəbəkəsi adlandırıb. Mobil operator abunəçisi üçün ən vacib olan məsələ şəbəkənin keyfiyyəti və sürətidir. Biz isə bu sahədə üstünlüyümüzü praktiki şəkildə ardıcıl olaraq 3-cü dəfə sübut etmişik!", deyə Bakcell şirkətinin baş kommersiya direktoru Reinhard Zuba bildirib.

Belə ki, Bakutel 2019 ərzində Bakcell stendinə gəlmiş minlərlə qonaq Bakcell şəbəkəsinin üstünlüyü və ölkənin telekommunikasiya bazarında ilk və ən reytinqli virtual müştəri xidmətləri aləti olan "Mənim Bakcellim" mobil tətbiqetməsinin yenilikləri ilə tanış olub, Azərbaycan gəncləri üçün yeni imkanlar yaradan "AppLab" startap inkubasiya proqramı barədə məlumat almaq və hədiyyələr qazanmaq üçün "Ulduzum" loyallıq proqramının oyunu, lotereyalar və digər oyunlarda iştirak etmək imkanını qazanıb. "Bakcell"in "Bakutel 2019" sərgisində iştirakı ilə bağlı hazırlanmış videoçarxa burada baxa bilərsiniz: https://youtu.be/MsdgGbZHJ94

## AzerTelecom-un stendi "Bakutel-2019" sərgisində ən innovativ stend seçilib

Azərbaycanı beynəlxalq internet şəbəkəsinə bağlayan magistral internet provayderi AzerTelecom şirkətinin "Bakutel-2019" 25-ci Yubiley Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar sərgisindəki stendi sərginin "ən innovativ stendi" adına layiq görülüb. Bununla bağlı şirkət "Bakutel-2019" sərgisinin təşkilatçısı olan Caspian Event Organizers (CEO) şirkəti tərəfindən sertifikatla təltif olunub.




Qeyd edək ki, AzerTelecom dekabrın 3-dən 6-dək davam edən sərgidə Azərbaycanın Regional Rəqəmsal Mərkəzə çevrilməsi istiqamətində icra etdiyi "Azerbaijan Digital Hub" proqramını və bu proqramın tərkib hissələri olan iri infrastruktur layihələrini təqdim edib. Sərginin yerli və xarici iştirakçılarına şirkətin reallaşdırdığı "Digital Hub" proqramı, bu proqramın icra mərhələləri, ölkə daxilində və xaricində magistral infrastruktur quruculuğu, Xəzər dənizinin dibi ilə Azərbaycan-Qazaxıstan və Azərbaycan-Türkmənistan marşrutları üzrə magistral fiber-optik kabel xətlərinin çəkilməsi və beləliklə də Avropa ilə Asiya arasında Azərbaycan vasitəsilə Rəqəmsal İpək Yolunun formalaşması, Bakının İnternet Mübadilə Mərkəzinə çevrilməsi, Azərbaycanda iri Data mərkəzin tikilməsini və ümumilikdə ölkədə rəqəmsal ekosistemin qurulmasını layihələri barədə ətraflı məlumat verilib. Nəticədə, AzerTelecom şirkətinin stendi və təqdim olunan layihələr sərgi iştirakçıları tərəfindən maraqla qarşılanıb. AzerTelecom Azərbaycanın telekommunikasiya operatorudur. Şirkət ölkənin ilk mobil operatoru və ən sürətli mobil internet provayderi olan Bakcell şirkətinin törəmə müəssisəsidir. AzerTelecom şaxələnmiş şəbəkə vasitəsilə Azərbaycanı beynəlxalq internet şəbəkəsi ilə birləşdirir. Şirkət telekommunikasiya sektorunda yerli və xarici şirkətlərə müxtəlif qabaqcıl xidmətlər təqdim edir.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**